# ŞƏHİDLİYİN POLAD ZİRVƏSİ

## General-mayor Polad Həşimov xatirələrdə

Tərtib Etdi:
ŞƏRİFLİ YUSİF

2020

*Bu kitabın bütün hüqüqları Azərbaycan Xalqına aiddir. İstinad göstərilmədən və Heç bir izazə alınmadan kitabdakı məlumatlar çap kserekopya ya da hər hansı bir üsülla çoğaldıla yayınmlana və paylaşıla bilər.*

***Allah yolunda öldürülənlərə (şəhid olanlara) "ölü" deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz. (BƏQƏRƏ SURƏSİ 154)***

***"Heç vaxt güman etmə ki, Allah yolunda qətlə yetirilənlər ölülərdir. Onlar Rəbləri yanında ruzi verilmiş dirilərdir.***

***(NİSA SURƏSİ 74)***

***Peyğəmbər bir şəxsin belə dua etdiyini eşitdi: Pərvərdigara! Səndən istəniləsi ən yaxşı şeyi mənə əta et." Həzrət buyurdu: "Əgər bu dua qəbul olunsa, o, Allah yolunda şəhid olar."***[1]

***Əli (ə) buyururdu: "And olsun Əbu-Talib oğlunun canı əlində olan Allaha, Allah yolunda min qılınc zərbəsinə dözmək yorğan-döşəkdə ölməkdən daha asandır.***[2]

---

[1] "Mustədrək", c. 2, səh. 243.
[2] "Nəhcül-bəlağə".

Bu Kitab (kitabça ) **Şəhid General-Mayor Polad Həşimovun** bütün azərbaycanlılar tərəfindən tanınması məqsədi ilə Onu tanıyanların sosial şəbəkələrdə paylaşdıqları xatirələri,kütləvi informasiya vasitələrində yayımlanmış məlumatlar və müsahibələr əsasında tərtib edilmişdir.

General-mayor Polad Həşimov xatirələrdə başlığı ilə qeyd olunmuş məlumatlar Dəyərli İlahiyyatçı Mahir Şəkərovun Facebook səhifəsindən götürülmüşdür.

Digər Məlumatlar götürülən mənbələr istinad olaraq qeyd olunmuşdur.

Xatirələr heç bir düzəliş edilmədən olduğu kimi paylaşılıb.



**Emil Doktor:** Mənim də komandirim olub.

Əsl general adına layiq bir insan. Hələ də inanmağım gəlmir.

## Niyə məhz bu insan ?

**Şəhid General Mayor Polad Həşimovun** Əsgəri Olmuş Emil bəyin Niyə Məhz Bu İnsan? Sualına Kitabda Qeyd olunmuş Xatirlər Müsahibələr cavab verir.

## General-Mayor Polad Həşimov Haqqında Qısa məlumat

Polad Həşimov 2 yanvar 1975-ci ildə Sumqayıt şəhərində anadan olmuşdur. Əslən Qəbələ rayonunun Vəndam kəndindəndi. Orta təhsilini Sumqayıt şəhərində əvvəlcə 28 nömrəli sonra isə 34 nömrəli məktəbdə alıb. Polad Həşimov Azərbaycanda H.Əliyev adına Ali hərbi məktəbdə, Türkiyədə hərbi akademiyada təhsil alıb..

O, ailəli idi, 2 oğul və 1 qız atası idi.

Polad Həşimov 2003-cü ildə mayor qismində Prezident Heydər Əliyevin Sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdir. 6 il sonra, 2009-cu ildə isə o, artıq polkovnik-leytenant qismində Prezident İlham Əliyevin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunur.

2014-cü il iyunun 25-də III dərəcəli Vətənə xidmətə görə ordeni ilə təltif edilən Polad Həşimov, 2016-cı ilin Aprel döyüşlərində göstərdiyi qəhrəmanlığa görə II dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə mükafatlandırılır. Həşimov, 2016-cı ilin 2-4 aprelində cəbhə boyu baş verən döyüşlər zamanı Talış qəsəbəsi uğrunda gedən döyüşləri aparan 1-ci Ordu Korpusunun Qərargah rəisi olub.

2019-cu il iyunun 25-də Polad Həşimova general-mayor ali hərbi rütbəsi verilir.Həşimov daha sonra Azərbaycan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun Qərargah rəisi təyin olunur.

General-mayor 2020-ci il iyulun 14-də Tovuz istiqamətində baş verən şiddətli döyüşlər zamanı Ermənistan Silahlı Qüvvələrinin hücum cəhdinin qarşısını alarkən həlak olur.

Bununla da, Polad Həşimov İsmət Qayıbov və Məhəmməd Əsədovdan sonra, 1988-ci ildən etibarən başlayan Qarabağ müharibəsində həlak olan üçüncü Azərbaycan generalı oldu.

İyulun 14-də general-mayor Polad Həşimovun nəşi əvvəlcə doğulduğu Qəbələ rayonunun Vəndam qəsəbəsinə, sonra isə yaşadığı Sumqayıt şəhərinə gətirildi. General iyulun 15-də II Fəxri Xiyabanda, onunla birlikdə şəhid olan polkovnik İlqar Mirzəyev ilə yanaşı dəfn olundu. Vida mərasimində müdafiə naziri Zakir Həsənov, müdafiə nazirinin müavini Ramiz Tahirov, Baş Qərargah rəisi Nəcməddin Sadıkov, Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdir müavini Yaşar Əliyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov iştirak edib.

## Şəhid Genar-Mayor Polad Həşimov haqqında

**Elgün Gənsimsoy yazır.**: Polad Həşimovun zabit həyatına nəzər salsaq O müxtəlif illərdə, müxtəlif rütbələrdə müvafiq vəzifələrdə çalışanda ölümlə göz-gözə gəlmişdi və ilahi təsadüf nəticəsində sağ qalmışdı. Qismət bu günə, bu səngərə, bu döyüşə imiş... Adı kimi əqidəsi, iradəsi olan adamı zaman sıxıb-sıxıb general-mayor Polad Həşimov elədi ki... Azərbaycanın müasir hərb tarixində ilk şəhid general olsun.

Onun haqqında çox şey demək olar. Səngər adamı idi. Döyüş adamı idi. Vətən Adam idi. Polad kimi general idi.

General Polad kimi müvəqqəti olaraq yaşamağı yox, Polad General kimi əbədi olaraq yaşamağı seçdi. Tarix adam olub, tarixə köçdü.

Maraqlıdır. Dünənə axşam Eldəniz Hüseynovla birlikdə oturub əlimizi çörəyə uzadırdıq. Qara xəbəri gəldi. Boğulduq... Ar eliyib ətrafı dilxor etməmək üçün yaşı içimizə axıddıq. Eldəniz Hüseynov dərhal ordakı əlaqələrini işə salıb onu axtardı. Axır ki gecə bölmələrin birinə gəldi və telefonla danışdı. O qədər şən, gur səslə, zarafatla danışırdı ki...

"Komutanım, səndən nigaran idik. Haqqında yalnış məlumatlar yayılır", -  dedi, Eldəniz. Cənab GENERAL: Eldəniz hər şey yaxşıdır , sabah daha gözəl xəbərlər olacaq. Narahat olma... - dedi. Polkovnik-leytenant Eldəniz Hüseynov da, mən də, Anar da, Elməddin də, Rəşad da lap çağa kimi sevindik. Halbuki komandirin səsin eşidənə qədər vurğun vurmuşlara dönmüşdük.

Və...

Səhərin sübhündə onun "gözəl" dediyi xəbəri aldıq: "General Polad Haşımov şəhid oldu".

Ürəyin nəhənkliyinə bax ey: General olasan, əsgərlə çiyin-çiyinə cəbhədə şəhid düşəsən. Ana-bacılarımızdakı ürəyin nəhənkliyinə bax ha: "Vay, general qardaşım",- deyib, nalə çəkəcək. Vətənin nəhənkliyinə baxın siz: ONUN səngərində GENERAL can verir.

Və...

Bir də dönüb səngərin müqəddəsliyinə baxın siz: Ora General-mayor Polad Həşimovun da qanı töküldü.

Bütün ölkəyə fərəqət! Diqqət səngərə!!!!!!! GENERAL-MAYOR HƏŞİMOV son döyüş tapşırığını yerinə yetirdi!

**14/07/2020**

# General-mayor Polad Həşimov xatirələrdə

## General-mayor Polad Həşimov xatirələrdə 1

**Vüqar Edilov yazır:** Əsgərliyimin ilk günləri Ramazan ayına təsadüf etmişdi. 2 gün idi ki gizlincə oruc tuturdum. Namaz qılmağıma icazə alsamda oruc tutmağıma icazə almağa çəkinmişdim, düşünmüşdümki icazə verməzlər.

2 ci gün axşamı təcili olaraq şəxsi heyyəti düzdülər. Bölük kamandirimiz girdi içəri və soruşdu. "İçərinizdə neçə nəfər oruc tutur"?? Heç kim dillənmədi. Əslində məndən başqada oruc tutan yox idi. Yanımdaki əsgər yoldaşım dedi niyə səsini çıxarmırsan? Xahiş etdimki deməsin. O da yazığı gəlmişdi, nə idisə dedi yoldaş kapitan Ədilov orucludur. Məni çıxardı ön cərgəyə dedim indi dişinin dibindən çıxanı deyəcək. Amma əksi oldu. Tağım komandirlərinə tapşırıq verdiki oruc tutan əsgərlər bütün xidmətlərdən ayrılsın.

Təsəvvür edin Ramazan ayı boyunca rahat şəkildə orucumu tutub, namazımı qıldım.

Azərbaycan ordusunda neçə belə hərbi hissə var???

Bəli Cənab Şəhid Polad Həşimovun hərbi hissəsində xidmət etdiyim müddətcə əksər namaz vaxtlarım şəxsi heyyətin düzülüş vaxtı ilə üst-üstə düşürdü. Ancaq heç vaxt buna görə mənə heç bir söz deyilməyib. Sözümün canı, Cənab Şəhidin rəhbərlik etdiyi H/H də bütünlüklə mənəvi ruh yüksəkliyi hökm sürürdü. Allah məqamını uca etsin..

**General-mayor Polad Həşimov xatirələrdə 2**

**"Sən də qal, bizim din xadimlərinə də ehtiyacımız var".**

Rza Rzayev yazır: 2011-12 ci ildə "N" saylı hərbi hissədə əsgərlik xidmətinə yollandım.

Bizim xidmət elədiyimiz hərbi hissə düşmənlə məsafə baxımından o qədər də uzaq deyildir. Artıq xidmət olaraq altı ayı başa vururduq. Bir gün növbətçi hissənin əsgəri

"Ali təhsillilər ! plasda düzül" çağrışını elan etdi.

Dərhal bütün ali təhsilli olan əsgərlər öz yerlərini tuttular.

Az keçmədi ki,yerişi, duruşu və əsl zabit ciddiyyəti ilə bütün əsgərlərin həqiqi sevgisini qazanmış Komandir önümüzdə dayandı. Bir-bir əsgərlərdən hansı Universiteti bitirdiyini maraqlanırdı. Əsgərlərdən bəziləri Briqadada manqa komandiri(Çavuş) qalmalı idi.

Sıra mənə çatdığı zaman hansı Universiteti bitirdiyimi soruşdu, mən də Baki İslam Universitetini bitirdiyimi söylədiyimdə

Bir neçə saniyə gözlərimin içinə baxaraq sükut etdi.

Daha sonra "Sən də qal,bizim din xadimlərinə də ehtiyacımız var" dedi...

Allah ruhunu şad, Cənnətdə məqamını uca eləsin Generalım !

Biz inanırıq ki, bu millətin vicdanlı, vətəninə,bayrağına bağlı əsl qəhrəman oğulları hələ də var.Onlar bu qanın intiqamını çox ağır alacaqlar.

## General-mayor Polad Həşimov xatirələrdə 3

**Taleh Mamedov bizə yazır:** "Mənimdə briqada komandirim olub. Çox sadə və gözəl insan idi. Briqadanın içində təmir işləri gedəndə əlinə bel götürüb əsgərlərlə bərabər işləyərdi, haqqında ancaq xoş sözlər demək olar. Mənəviyyatlı insan idi, əlində uzun təsbehlə gəzdiyini görmüşəm, zikr edərdi. Allah rəhmət etsin.

## General-mayor Polad Həşimov xatirələrdə 4

**Həbib Axundov yazır:** "Mənim komandirim olub. Çox aktiv zabit idi. Əsəgərlər üçün nə lazımdırsa edərdi. Şəxsən mənə hərbi formasını vermişdi. Allah rəhmət eləsin

## General-mayor Polad Həşimov xatirələrdə 5

**Nicat Həşimzadə yazır:** Bir gün nazirlikdən yoxlama gəlmişdi. Paltarlarımız çirk içində idi. Su çətinliklə tapılırdı. Qar suyu ilə paltar yuyurduq. Bir polkovnik leytenant bizi danlayırdı. Komandirimiz Polad Həşimov əsəbiləşdi və dedi:

Mənim əsgərimi məndən başqa heç kim danlaya bilməz. Sözünüz varsa mənə deyin. Mənim əsgərlərim paltar yumağa su tapmır. İçməli su gətirmək üçün sinəyə qədər qarı tapdaya-tapdaya 3 km yol gedir, həmin yolu da hər əsgər 30-40litr su ilə geri qayıdır. Mənim əsgərlərim isti kabinetlərdə xidmət etmirlər, cənab polkovnik.

## General-mayor Polad Həşimov xatirələrdə 6

**Ramazan Səmədov yazır:** 2010-2011-ci illərdə komandirim olmuş general-mayor Polad Həşimovun xatirəsinə:

Yanvar ayı idi, qar dizə çatırdı. Hərbi hissəyə çatdım. 2-3 gün sonra komandirim Həşimov məni yanına çağırdı. Dedi ki, nə problemin olsa, heç kəsə yox, birbaşa özümə de. Sənin dostların çoxdur, bilirəm, amma ən yaxın dostun mənəm burada.

Tez-tez çağırırdı yanına. Dərdləşirdik, söhbət eləyirdik. Hər mövzuda. Həqiqətən sözdə yox, əməldə cəsur, vətənini sevən bir insan idi. Əsgərlərin yeməyinə, sağlamlığına fikir verirdi.

Tualetimizə kimi öz hesabına təmir elətdirirdi. O vaxtki rəhbərliyin yardımını gözləmirdi.

Briqada qarşısında həmişə mikrofonsuz, əsl natiq kimi danışardı. Ən savadsız insan belə onun nə demək istədiyini anlayırdı. Fikirlərini hərbçilərə rahatlıqla ötürürdü.Briqadanın həyətində erməni traktoru var idi. Özü şəxsən kəşfiyyatda olanda sürüb gətirmişdi. Traktorun arxa şüşəsində güllə yerləri var idi. Amma ölümdən qorxmadan briqadaya kimi sürmüşdü traktoru. Polad idi axı adı. Polad, güllə keçirməz…

İyun ayında Aztv məndən müsahibə götürməyə gəlmişdi. Məqsəd hərbi xidmətdən yayınıb türməyə gedən bir aktivistə qarşı müsahibə almaq idi. Elə komandirin otağında ikən jurnalistə dedim ki, bunu eləyəsi deyiləm. Komandir məni kazarmaya göndərdi. Jurnalistləri götürüb harasa getdilər. Gecə yarısı növbətçi mənə təcili komandirin yanına getmək göstərişini verdi. Komandir Həşimovla çay içdik, otağında mənə dedi ki, narahat olma, danışdım jurnalistlərlə. Sənə siyasi suallar verilməyəcək. Zarafatca, həm də ciddi şəkildə komandirə qayıtdım ki, sizi efirdə tərifləməyəcəm ha, çünki buna ehtiyacınız yoxdu. Güldü, dedi ki, düz eləyirsən. Ürəyin nə istəyir, o haqda da danış. Sonra məni nümunəvi xidmətə görə 10 günlük məzuniyyətə göndərdi. Tapşırıqsız, tərifsiz.

Qayıdandan sonra Briqada düzülüşü idi. Minlərlə əsgərin qabağında məni çağırdı, dedi ki, doktor (hərbi xidmətə doktoranturanı yarımçıq buraxıb getmişdim, ona görə doktor deyə çağırırdı məni), gedirik posta odun daşımağa. Əsgərlərlə çiyin-çiyinə postlara odun, yemək daşıyırdı Həşimov.

Yanvarın 1-i evə yola düşmək vaxtı çatdı. Özü mənə bir geribilim forması verdi. Dedi, nə düşünürsən, onu da yaz. Problemlərdən danışmağa çəkinmə, təkliflər ver. Yenə zarafatından qalamayaraq əlavə elədi ki, yaz doktor, yaz, bəlkə oxuyan oldu…

İndi isə, bu yazını yazıram. Özü oxumayacaq komandirim. Amma bəlkə başqaları oxudu, qəhrəmanımızın qiymətini öləndən sonra yox, vaxtında verə bildik.

## General-mayor Polad Həşimov xatirələrdə 7

**Cavid GS yazır:** Kim şəxsi avtomobilini satıb əsgər yeməkxanası tikdirər, kim komandir ola ola şəxsən yol çəkər, kim neytraldan keçmək üçün özünü sürücü üçün sipər edər?! Bu siyahını uzatmaqda olar... Mən başqa belə oğul tanımıram!

## General-mayor Polad Həşimov xatirələrdə 8

**Seymur Kazimov yazır:** General mayor Polad Həşimov mənim komandirim olub. Mərd zabit idi. Cəsur zabit idi. Əminliklə deyirəm, həm cəmiyyətimiz, həm də ordumuz üçün çox böyük itkidir. Təpədən-dırnağa zabit idi, nizamnamədən kənara çıxmazdı, amma bəzi hallarda əsgərin salamatı üçün güzəştə getməyi də vardı.

Ünsiyyətimiz çox olub, amma 2 dəfə cəzasına da məruz qalmışam- bir dəfə yayın istisində stadionu 10 dairə qaçırtdı

mənə, özü də otağının pəncərəsindən seyr edirdi. İkinci dəfə də, hərbi andı 100 dəfə əzbər dedirtdi. Nə deyim, xəta məndə idi, cəzamı çəkməliydim.

2006-cı ilin yay ayı idi, mənim də hərbi xidməti başa vurmağıma günlər qalırdı, axşam yoxlanışında kazarmanın yanından keçəndə nə üçün yatmadığımı soruşdu, mən də futbola baxmaq istədiyimi bildirdim. Apardı məni otağına, birlikdı futbola baxdıq, doğrusu, hansı oyun idi, yadımda qalmayıb.

Hərbi xidməti başa vurduğum gün qərargaha getdim ki, sağollaşam. Bayırda gözləməyimi tapşırdı. 10 dəqiqədən sonra əlində bu xidməti xasiyyətnamə ilə gəldi və mənə uzatdı. Gözucu baxdım, təşəkkür etdim. İstədim əlini sıxam, amma bacarmadım, zabit zəhmi gözlərində idi. Hərbi salam verdim, o da jestimə qarşılıq verdi. Əsgər və zabit kimi sağollaşdıq. Bir daha görüşmədik.

Onun haqqında çox şey danışa, yaza bilərəm. Qalanları məndə qalsın.

2018-ci ildə Talışdakı "Polad postu"nda oldum. Həmin postu 2016-cı ilin aprelində polkovnik Polad Həşimov azad etmişdi və onun şərəfinə adını vermişdilər.

Təşəkkür edirəm, 2006-ci ildəki mayor, 2020-ci ildəki general mayor Həşimov! Allah rəhmət eləsin, qəbrin nurla dolsun, mənim generalım!

P.S Bir müddətdir buraya daxil olmuram, bunu yazandan sonra yenidən gedəcəyəm.... yazmaya, paylaşmaya bilməzdim....

**General-mayor Polad Həşimov xatirələrdə 9**

Şəhid General haqqında qısa-qısa yazılan müsbət rəylərin bir qismini cəm şəkildə təqdim edirik: YENİLƏNİR...

**Musa Nesirli:** Allah rəhmət eləsin.Həqiqətəndə dəyərli insan zabit idi

**Togrul Malikov:** 2010 2011 bizim HH komandirimiz idi. Cox sade vetenperver insan idi. Allah rehmet etsin . Esil doyushchu kimi adina layiq sekilde Veteni ugrunda vefat edib ve shehidliye yukselib.

**Фуад Абдулхусейнов:** Şəxsən tanıdığım şəxsiyyət idi, eşitdiyim deyil, şahidi olmuşam

**Emil Doktor:** Mənim də komandirim olub.

Əsl general adına layiq bir insan. Hələ də inanmağım gəlmir.

Niyə məhz bu insan ?

**Samir Mahmudov:** Qardaş bu insan haqda nə qədər danışsaq azdır Komandirim olub əvəz olunmaz KOMANDİR əvəz olunmaz insan

**Vüqar Səfərov:** 2008 ci ildə Nasosnuda kamandirim olub Həşimov. Çox sadə və igid oğlan idi.Məkanın behişt olsun canım kamandirim.

**Ulvi Agayev:** Polad Hewimov menimde kamandirim olub ne desem ne daniwsam o insana bes edmez insan kimi insan zabit kimi zabit olub esgerle hec vaxd aci daniwmazdi her ay posdumuza oz cibinden siqaret pradukt alib ozu wexsen getirirdi sizin kimi insanj kamndiri itirdiy bizə Allah sebir vermesin daha bize besdir bu qeder sebir

**Elxan Quliyev:** 2005 ci ildə bizim biriqadanın qərargah rəisi idi.Əsl vətənpərvər zabit idi.Allah rəhmət eləsin

**Ульви Гусейнов:** 2010-2011 de bizim de komandirimiz olub.Gozel insan idi. Allah Rehmet Elesin

**Aqil Islam:** Komandirim, Cənab Generalım, məkanınız cənnət olsun, bir zaman bizim əhvalımızı soruşurdunuz, indi Sizin üçün nekroloqlar yazırıq. Allah bütün şəhidlərimizi rəhmət eləsin.(yazmaq çox ağırdır)

**Ferid Elizade:** 2009 2011 ci ildə də bizim komandirimiz olub.merd kiwi idi.Allah rəhmət eləsin.

**Zaur Rehmanov:** Allah rehmet elesin ruhu wad olsun. Yanvarda qebulunda oldum insan neqeder sade semimi olar ele qebul elediki meni sanki qarwindaki dostun taniwindi

**Vaqif Shirinzade:** Polad Həşimov mənim də h/h komandirim olub. Əsl zabit və əsl komandir idi. Çox böyük zabitimizi itirdik!!! Hələ də inanmağım gəlmir. Ruhu şad olsun.

**Fehmin Meherremov:** 2011 2012de xidmet elediyim herbi hissenin kamandiri vezifesindeydi.cox gozel zabi eyni zamanda cox gozel insan idi.

**Kamran Jalilov:** 2010-2011 H/H komandirimiz olub

Hemiwe eskerin qeydine qalan zabit olub

Ruhun Şad Olsun Cenab General

**Ilqar Yusifov:** 2010 cu ilde men onun surucusu olmuwam.(hh komandiri idi)cox gozel insanidi.cetin gunlerde esgerle beraber iwleyirdi.cox heyf.Inwallah muharibe olar qisasini alariq

**Vasif Cemiyev:** 2010 aprel prizivi olmuwam Menimde komandirim bele olmali idi Men onun adiyla hemwe fexr elemiwem Allah rehmet elesin Qebri nurla dolsun.

**Nihat Tahirbəy:** Mənimdə komandirim olub. Onda cavan kapitan idi. Murovda tabor komandiri. Onun yüksək əxlaq nümunələrindən danışmaqla bitməz. Başın sağolsun vətən

**Turxan Aslanov:** O insan mənim komandirim olub. Həqiqətən bu ölkə üçün, Vətənimizçün əvəzedilməz xidmətləri çoxdur. Danış danış qurtarmaz. Sadəcə Allahdan onun şəhidlik zirvəsinə ucalmağı arzu edirəm İnşəAllah.! Amin. Şəhidlər ölmür, o insan onu tanıyan qəlblərdə yaşayacaq.!

**Elçin Eliyev:** 2010-2011 ci ildə Daşkəsəndə hərbi hissə komandiri idi general mayor Polad Həşimov mənimdə hərbi hissə komandirim olub əsl insan mərd cəsur qorxmaz insan idi Allah rəhmət eləsin qəbri nurla dolsun☺

**Fəxrəddin Laçınlı:** Bir il ay əsgərlik müddətim boyunca ŞƏHİDİMİZ haqqında nə mənfi bir şey eşitdim, nə də ki, gördüm. Üç ay hərbi hissədə, bir il 3 ay isə postda komandir kimi, komandirliyini şahidiyəm.

Bizlər sənə yox, sən bizlərə haqqını halal et.

**Kənan Qeniyev yazır:** Atamla bir yerdə işləmişdi, Sumqayıtda da. 50.000 kredit götürüb hərbi hissəni düzəltdirmişdi. Niva vermişdilər satıb hamam tualeti düzəltdirmişdi hərbi hissə də. Çox mərd insan olub.

**Farhad Ismayilov yazır:** Mən fəxr edirəm ki, Daşkəsəndə yerləşən N saylı hərbi hissədə qulluq edərkən siz həmin hərbi hissənin komandiri olmusuz. Yerin Cənnət olsun. Sizin kimi general ölməməli idi. Bu qədər müsbət cəhətləri olan bir şəxsiyyət çətin bir daha dünyaya gəlsin. Allah bir daha rəhmət eləsin.

**Vusal Nesirli yazır:** Cox gozel insan idi briqadaya gələndə hamı sevinirdi. Öz cibinin puluna briqadaya yeməkxana tikdirdi, 2000 nəfərlik. Alah rəhmət eləsin.

**Vusal Nesirli yenə yazır:** Mənim komandirim olub. Gözümün qabağında əsgərin batinkası cırılmışdı. Öz batinkasın çıxarıb verdi. Allah sənə rəhmət eləsin generalım.

**Abdulov Ramil yazır:** Murovda xidmət edəndə mən baş leytenant o isə kapitan idi. Əsgərləri öz uşağı kimi istəyirdi. Onun batalyonuna düşən əsgər sevinirdi.

## General-mayor Polad Həşimov xatirələrdə 10

**Ramil Jabbarov yazır:** Şəhid olan general-mayor Polad Həşimov mənim komandirim idi.

Duruşu ilə, danışığı ilə, peşəkarlığı və Vətənə sevgisi ilə igid kimi igid idi. Elə bir komandirimiz idi ki, hərbi heyət qarşısında çıxış edəndə içimizdəki vətənpərvərlik hissini elə alovlandırırdı ki, əliyalın düşmən üzərinə qaçmağa hazır idik.

Tabura gələndə "ÖNCƏ VƏTƏN!" kəliməsini elə içdən işlətmişdi ki, indiyə qədər səsli xatırlayıram.

Vətən səni heç vaxt unutmayacaq, Cənab Komandir!

## General-mayor Polad Həşimov xatirələrdə 11

**Nicat Həşimzadə yazır:** Bir əsgər yoldaşımız ata olmuşdu. Bu hadisə Polad Həşimova tabor komandirimiz tərəfindən məruzə edilmişdi. Əsgər yoldaşım məzuniyyət haqqından istifadə etmişdi. Həm də yeni gəlmişdi məzuniyyətdən. Xəbər komandirə çatanda tapşırıq verdi ki, əsgəri yanıma gətirin.

Dialoqu olduğu kimi yazıram:

- Komandirlərin səndən razılıq edir, əsgər yoldaşlarının da hörmətini qazanmısan. Qüsursuz xidmətə görə növbədən kənar 10 günlük məzuniyyət verilir sənə.

Kövrələn əsgər yoldaşımız deyir:

- Cənab polkovnik, axı mən yeni gəlmişəm məzuniyyətdən.

- Bilirəm, evinə bir də get ki, özün də yenilənib gələsən. (gülümsəyir) Əsgər, pulun varmı?

- Bəli, cənab polkovnik.

- Göstər.

(Əsgərin cibindən 80 manat çıxır)

- Düzün de, əsgər yoldaşların kömək edib hə?

- Bəli, cənab polkovnik.

- Sənin yolun çox uzaqdır. O pulu qaytar əsgər yoldaşlarına. Get hazırlaş, sabahı gözlə.

Səhər əsgəri komandirin otağına gətirirlər:

- Pulu qaytardınmı?

- Bəli, cənab komandir.

- Gedə bilərsən, aşağıda səni gözləyən maşın var.

- Taksi əsgəri düz evinə aparır. Sürücü əsgərə konvert verir:

- Komandir tapşırdı ki, ancaq evdə açsın.

Evdə zərf açılır, kağızda yazılıb:

"Təbrik edirəm, əsgər, ata olmusan."

Və konvertin içində 170 manat vardı.

Belə böyük şəxsiyyət idi Polad Həşimov.

## General-mayor Polad Həşimov xatirələrdə 12

**Nicat Həşimzadə yazır:** General mayor Polad Həşimovun ən nifrət etdiyi şey bilirsiz nə idi?

Hansısa yüksək vəzifəli, yüksək rütbəli bir adamın bir əsgəri tapşırması. Çünki, Polad Həşimov əsgərlər arasında fərq qoymurdu. Bir MAXE nin məsuliyyətsizliyi üzündən əsgər ölümü olmuşdu. Polad Həşimovun rütbəsini vurmuşdular. Polkovnik leytenant mayor olmuşdu. O, əvvəlki kürsüsünə əyləşmirdi içində nələrsə qırılmışdı. Amma bu halında da əzəmətli, qürurlu idi. O mayor rütbəsinə salınsa da bütün hərbi hissədə balacadan böyüyə hər kəs yenə də ona cənab polkovnik deyə xitab edirdi.

## General-mayor Polad Həşimov xatirələrdə 13

***<u>Öz evi olmayan komandirimiz bizim üçün ev düzəldirdi.</u>***

**Nicat Həşimzadə yazır:** Yatmağa yerimiz yox idi. Daha doğrusu bərbad halda idi. Göy palatkaları birləşdirib özümüzə yer düzəltmişdik. Bir dəfə dəhşətli küləkdən dam başımıza uçdu. Sonra gözlənilmədən dağda kazarma tikintisi başladı. Elə bildik ki, nazirlik bizim üçün kazarma tikir. Ancaq kazarmanı hərbi hissə komandiri Polad Həşimov öz hesabına tikdirdi. Öz evi olmayan komandirimiz bizim üçün ev düzəldirdi.

## General-mayor Polad Həşimov xatirələrdə 14

**Eynulla Fətullayev yazır:** Bu gün dostum general Polad Həşimov haqqında maraqlı hadisə nəql etdi. Dostumun oğlu Sumqayıtda Həşimovun komandir olduğu N saylı hərbi hissədə xidmət keçib. Dostumun ağlı gedib standart Azərbaycan komandirlərinə və zabit Həşimov ilə tanışlıq axtarıb. Nəhayət bir tanışının vasitəsilə zabitlə bir kafedə görüşə bilib. Təsadüfən öyrənib ki, Həşimovun mobil telefonu yoxdur. Özü ilə görüşə hədiyyə aldığı bahalı mobil rabitə də gətirib.

Dostum söyləyir ki, zabit hədiyyə haqqında eşitdikdə, ayağa qalxıb dərhal otağı tərk etmək istəyib. Uzun-uzadı xahiş minnət ilə Həşimovu geri qaytarıb, üzrhaqlıq ediblər.

Görüşdə məlum olub ki, Həşimov Dəmir bankdan kredit alır, pulları əsgərlərin problemlərinə xərcləyir. Sonra maaşından tədricən kreditləri qaytarırmış!!!!

Əslində, dostum zabitlə anlaşmaq məqsədi güdərək, bizdə geniş yayılmış ənənəyə sadiq oğlunun xidmət dövrünü evdə keçirməsini istəyib. Ancaq belə bir ləyaqətli komandirlə tanış olduqdan sonra, özü oğlunun hərbi hissədə qalmasını istəyib...

Bu hadisəni eşitdikdən sonra, təəssüf etdim ki, Polad Həşimovu tanımamışam. Gələcək müdafiə nazirimizi itirdik!!!

Allah şəhidimizə rəhmət eləsin!

## General-mayor Polad Həşimov xatirələrdə 15

**Baş leytenant Nicat Hüseynov yazır:** General Polad Həşimovla 4 il birgə xidmət etdim. Onunla bağlı bir çox xatirələrim var. Generalın Murov dağa yol çəkən vaxtları idi. Yolu niyə çəkdiyini soruşsanız, əsgərlər beli ilə ərzaq, odun daşımasın deyə. Axşam çağı bizim posta gəldi. Çox yorğun görünürdü, içəri girib çarpayıda əyləşdi. Mən komandirdən nəsə bir şey istədiyini soruşanda, Hüseynov çay istəyirəm, dedi. Əsgərə komandirə çay gətirməsini tapşıranda birdən gözüm çarpayıdakı mələfəyə sataşdı, çirklənmişdi. Digər otağa keçib çantamdakı təmiz mələfəni gətirib komandirə dedim ki, zəhmət olmasa siz stulda əyləşin, əsgər yataq örtüklərinizi dəyişsin. Komandir Haşımov xırda gözləri ilə mənə baxıb gülümsədi və dedi: "Hüseynov, mən səndən artıq insanam?" Nə deyəcəyimi bilmədim, donub qaldım. Sözünə davam edərək dedi: "Siz harda yatırsınızsa, mən də orada yatacam".

İndi necə bir insanla ünsiyyətdə olduğumu anlayıram. Ruhun şad olsun əziz general. Bağışla gec oldu

HORMƏTLƏ Baş leytenant Nicat Huseynov

## General-mayor Polad Həşimov xatirələrdə 16

Şəhid generalın ilk müəllimi: "Oğlum dedi, ana, Polad da burdadır" - MÜSAHİBƏ

1982-ci il, 1 sentyabr. Sumqayıt şəhəri 10-cu mikrorayonda yerləşən 28 saylı tam orta məktəbdə Səyyarə Hüseynova adlı gənc müəllimə ilk birinci sinfini qəbul edir.

Sinif otağına daxil olan müəllimə bütün şagirdləri ilə tanış olur. Bir-bir ayağa qalxaraq ad-soyadını deyərək özünü təqdim edən şagirdlərdən biri Polad Həşimov idi.

38 il sonra Azərbaycanın Xalq Qəhrəmanı zirvəsinə yüksələn, milyonların qəlbində mərhəmət və xeyirxahlıq kimi məğrurluq və mərdlik abidəsi ucaldan Polad Həşimov...

Xeberle.com xəbər verir ki, publika.az-a müsahibə verən Səyyarə Hüseynova o illəri belə xatırlayır:

28 nömrəli məktəb açılandan orda işləmişəm, ilk olaraq mənə 2-ci sinif vermişdilər. Lakin 82-ci ildə birinci sinif həvalə etdilər. Biz Poladın anasıgillə birlikdə 13-cü mikrorayonda yaşayırıq. Məktəb isə 10-cu mikrorayonda idi. İlk birinci sinfim Poladgilin sinfi oldu. Polad çox ağıllı, təmkinli uşaq idi, heç kimlə dava etməzdi. Dəcəl uşaq deyildi deyə, onun nə isə şuluqluq salmasını, yaddaqalan bir hadisə törətməsini xatırlaya bilmirəm. Amma yaxşı yadımdadır ki, o vaxt uşaqları yeməkxanaya aparırdıq. Yeməkxana işçisi çatdıra bilmirdi, birdən-birə 7-8 sinif gəlirdi. Polad həmişə durub mənə kömək edirdi. Həm də riyaziyyatı yaxşı bilirdi, yaxşı əl qabiliyyəti var idi, gözəl rəsmlər çəkirdi. Mən lövhədə yazı yazıb şagirdlərin arasına keçəndə

uşaqların yazdıqlarına bir-bir nəzər yetirirdim. Görürdüm Polad necə gözəl, səliqəli yazıb. Dəftərini alıb havaya qaldırıb digər şagirdlərə göstərirdim ki, baxın görün Polad necə gözəl yazıb. Hər zaman elə idi. Sinifdə 10-12 əlaçı vardı, onların başında Polad dururdu. 4-cü sinfə kimi ona dərs demişəm. Daha sonra şagird sıxlığına və yol keçməklərinə görə 33 nömrəli məktəbi tikdilər və biz Polad 7-ci sinifdə oxuyanda həmin məktəbə keçdik. Orda da yer məsələsi olduğuna görə mən də, qonşuluqda yaşayan şagirdim Polad da 1 il sonra sonradan 34 nömrəli məktəbə keçdik. Orda onun sinif rəhbəri olan Nəzakət müəllimə artıq vəfat edib.

Onun şəhid olması xəbərini necə öyrəndiniz?

- Televizordan eşitdim ki, generalımız şəhid olub. Adını eşidən kimi bildim bizim Poladdır, özümə yer tapa bilmədim. Biz uzun illərdir bir mikrorayonda qonşu binalarda yaşayırıq. Anası ilə hər dəfə rastlaşanda Poladla maraqlanırdım, onu soruşurdum. O da Poladın ön cəbhədə Murovda,Talışda xidmətdə olduğunu deyirdi. Belə oğullar vətənə, xalqa çox gərəkdir. Mən Poladın şəhid olmasını biləndə çox pis oldum, həm də onunla qürur duydum. Fəxr edirəm ki, Polad kimi bir generalımız var. O, vətəninin, elin-obanın yolunda getdi. Amma kaş ölməyəydi, erməni dığasının gülləsinə tuş gəlməyəydi. Mənim nənəm, babam İrəvan bəylərinin övladları olub. Ermənilər nədir ki, indi İrəvanda bizim qədim torpağımızda yaşayırlar.

- Polad Həşimov məktəbi bitirəndən sonra onunla əlaqəniz qalmışdı?

- Mənim oğlum da Murovdağda xidmət edib, müharibə veteranıdır. Özü də 94-cü ildə dağ əməliyyatları zamanı döyüşlərdə işirak edib. 99-cu ilə kimi hərbidə qaldı. Həmin

vaxtlar hər dəfə oğlumla görüşəndə mənə deyirdi ki, "mama Polad da burdadı”. Hər dəfə deyirdim ona məndən salam söylə, Allah sizi qorusun, bala. O vaxt bir dəfə özüm də Toğanaya getdim, gecə bir sutka orda qaldım. Səhərə kimi qradın, hərbi maşınların səsindən qulaq tutulurdu.

- Yəqin ki, anasına başsağlığı vermisiniz...

- Xəbəri eşidən kimi evlərinə getdim. Amma həyətdə camaat dedi ki, anası evdə yoxdur, sabah dəfn ediləcək. Növbəti gün gedib anasına başsağlığı verdim. Anası mənə dedi ki, Polad sənin tərbiyəni götürüb, Səyyarə müəllimə. Bir nəfər də gəlib əlimi öpdü, dedi ki, sən bu əllərlə onun balaca əllərindən tutub yazmaq-oxumaq öyrətmisən. Həqiqətən Polad çox fərqli idi. Kömək eləməyi çox sevirdi. Həmişə özünü yetirməyə çalışırdı. Fikrini elə səlis, doğru ifadə edirdi ki. Ona görə də dərsi danışıb yekunlaşdıranda çox vaxt Poladı qaldırıb mövzunu necə mənimsəməyi uşaqlara göstərirdim. Fikrini elə gözəl ifadə edirdi, elə düzgün danışırdı. Ona görə həmişə seçilirdi. Həm də yaddaşlı, savadlı idi, istədiyi instituta daxil ola bilərdi. Bəzən deyirlər ki, hərbiyə gedənlərin çoxu ali məktəbə savadı kifayət etməyənlərdir. Amma Polad elə deyildi, istənilən yerdə uğur qazana bilərdi. O da öz istəyi ilə hərbini seçdi, hamımızın fəxri oldu.

## General-mayor Polad Həşimov xatirələrdə 17

**Hacı Cavid Pənahlı yazır:** Şəhid Polad Həşimov haqqında tanıdığım iki hərbiçi fikir bildirdi, biri ağladı, biri dedi ki, özümə gələ bilmirəm hələki.

Palkovnik rütbəli hərbiçidən soruşdum ki, bir cümlə deyin barəsində. Buyurdu ki, onun üçün Zirədən pay aparmışdım, payı görən kimi, dedi ki, nə yaxşı oldu, dağa çıxıram əsgərlərin yanına, aparım yesinlər. Deyir, elə şövq ilə danışdı ki, mən özümü itirdim, insan əsgərini nə qədər sevər.

Digər mayor rütbəli hərbiçi isə deyir ki, iclaslarda şikayət etməzdi kimdənsə. Hər hansı bir komandir kimdənsə şikayət edərdisə, iclasın sonunda deyərdi ki, göndərin mənim yanıma, mən yola gedəcəm.

Getməyin bizi yandırsa da, şəhid dostlarını şad etdi.

## General-mayor Polad Həşimov xatirələrdə 18

**Kəramət Böyükçöl yazır:** Bayaq parkda bir dostumla gəzirdim. Münasibətləri varmış. Dedi, Polad kənddə qardaşımın toyuna gəlmişdi. Bir də gördüm həyətdə 20 çörəyi ortadan bölüb hərəsinin arasına bir şiş lülə kabab qoydu. Soruşdum ki, bunu neyləyirsən? Qayıtdı ki, əsgərlərə aparacam. Doğrudan belə şair ürəkli bir generalımız olub, amma biz onun varlığından öləndən sonra xəbər tutmuşuq. :(

## General-mayor Polad Həşimov xatirələrdə 19

**Deniz Aras Guliyev yazır:** Gəncədə N saylı hərbi hissədə kəşfiyyat bölüyündə xidmət edirdim, eyni zamanda ailəli idim. Magisturanı yeni bitirib xidmətə getmişdim. Beş aylıq əsgər idim, hərbi hissə komandiri məni bir gün yanına çağırıb dedi xasiyyətnaməni oxudum ailəlisən, xidməti məzuniyyətinə hələ var sənə 3 günlük məzuniyət verirəm get ailənin yanına. Dedim yoldaş polkovnik (o vaxt polkovnik idi) mənim rayonum uzaqdır. Bir gün getmək, bir gün gəlmək çətin olacaq çox sağolun dedim. Mənə dedi,əsgər bala Gəncədə öz evim var istifadə olunmur, deyərəm təmizləyərlər ananı,atanı, ailəni oraya çağırarsan üç günün yolda keçməz. Vallah belə mərd, anlayışlı komandirlərimiz olub.

## General-mayor Polad Həşimov xatirələrdə 20

**Elşən Abbasov yazır:** Bir dəfə Polad Həşimov dağa qalxırdı. Yolu qar tutmuşdu. Maz gəldi, yolda qarda ilişdi. Biz əsgərlər lapatka ilə qarı təmizləyirdik. Polad Həşimov düşdü kamazdan bizdən lapatkanı alıb başladı qarı təmizləməyə. İmkan vermədi kimsə onu dəyişsin. Mən ilk dəfə şahid olurdum ki, general olasan qar təmizləyəsən. Qalxdı posta, ona ayrıca stol açılmışdı. Komandir stolunda etiraz edərək mən əsgərlərin stolunda əsgərlərlə bir yerdə yeyəcəm dedi və bizlə oturdu. Allah bir daha rəhmət eləsin, ruhu şad olsun.

**General-mayor Polad Həşimov xatirələrdə 21**

**(4 qısa xatirə) (Görün biz kimi itirmişik).**

**Kənan Qeniyev yazır:** Atamla bir yerdə işləmişdi, Sumqayıtda da. 50.000 kredit götürüb hərbi hissəni düzəltdirmişdi. Niva vermişdilər satıb hamam tualeti düzəltdirmişdi hərbi hissə də. Çox mərd insan olub.

**Farhad Ismayilov yazır:** Mən fəxr edirəm ki, Daşkəsəndə yerləşən N saylı hərbi hissədə qulluq edərkən siz həmin hərbi hissənin komandiri olmusuz. Yerin Cənnət olsun. Sizin kimi general ölməməli idi. Bu qədər müsbət cəhətləri olan bir şəxsiyyət çətin bir daha dünyaya gəlsin. Allah bir daha rəhmət eləsin.

**Vusal Nesirli yazır:** Cox gozel insan idi briqadaya gələndə hamı sevinirdi. Öz cibinin puluna briqadaya yeməkxana tikdirdi, 2000 nəfərlik. Alah rəhmət eləsin.

**Vusal Nesirli yenə yazır:** Mənim komandirim olub. Gözümün qabağında əsgərin batinkası cırılmışdı. Öz batinkasın çıxarıb verdi. Allah sənə rəhmət eləsin generalım.

**Abdulov Ramil yazır:** Murovda xidmət edəndə mən baş leytenant o isə kapitan idi. Əsgərləri öz uşağı kimi istəyirdi. Onun batalyonuna düşən əsgər sevinirdi.

## General-mayor Polad Həşimov xatirələrdə 22

## (Görün biz kimi itirmişik).

**Ramil Aliyev yazır:** Salam. Deməli 2009-2010 cu illərdə Daşkəsəndə xidmət etmişəm. Hərbi hissə yeni idi, şərait yox idi, hətta tualet belə yox idi, komandir sonradan tualet tikdirdi. Yay ayları idi, hələ andiçmə olmamışdı. Bizim vaxtımızda saldırmaq məsələsi ləğv olunmuşdu deyə, çoxlu sayda Bakı uşağı düşmüşdü Daşkəsənə (bizdən əvvəlki çağırışlarda demək olar ki Bakı uşağı olmurdu Daşkəsəndə). Hər gün biri zəng elətdirirmiş komandirə. Bir gün hərbi hissəyə düzülüş verildi, bütün zabit-gizir və əsgər heyəti plasda toplandıq. Komandir çox əsəbi idi. Səbəbi isə, hansısa əsgərin evə zəng edib "bizə burda balota suyu içizdirirlər, içməyə su yoxdur" deməyi idi. Komandirin bizə ilk müraciət etdiyi cümlə hələ də bu gün kimi yadımdadır, baxmayaraq ki 11 il əvvəl olub. " Əziz, hərbiyə gəlmiş gənc qızlar" ☺☺. İlk müraciət məhz belə oldu. Əsəbi olduğu üçün bütün hərbi hissəyə digər posta qədər piyada qaçaraq getməyi əmr etdi, biz zabit-gizir heyəti ilə bərabər qaçmağa başladıq bütün şəxsi heyət. O biri posta qədər məsafə hədsiz çox idi. Özü də UAZ-la yanımızla gedir, nəzarət edirdi bizə. 15-20 dəqiqə qaçdıqdan sonra ürəyi dözmədi. Dur komandası verdi və bizə yeriyərək geri qayıtmağı əmr etdi. Sonra yenidən plasda düzüldük. Məqsədi bizi cəzalandırımaqla bərabər, həm xəbərdarlıq etmək, həm də məsləhət vermək idi. Sonra izah etməyə başladı, həmin əsgərə ki , yoldaş əsgər bizim hərbi hissə dəniz səviyyəsindən 3000 metr yüksəklikdə yerləşir. Dağın başında balota olmur, balota düzənlikdə olur. Və hər birimizə hər çətinlikdə evə zəng yox,

birbaşa özünə müraciət etməyimizi dedi bizə. O qədər Gözəl nitqi vardı ki, ən savadsız əsgər belə onu asanlıqla başa düşürdü. Ən əsası bütün çıxışlarında mikrofon olmadan səsi hamıya aydın şəkildə gəlib çatırdı.

Hələ də cənab General-mayorun ölümünü qəbul edə bilmirəm

**General-mayor Polad Həşimov xatirələrdə 23**

**(Görün biz kimi itirmişik).**

**Ramil Aliyevdən daha iki xatirə:** Mən əsgər olan vaxtı bir uşaq gəlmişdi. Hər gün qaçırdı h/h-dən. Qalmırdı. Deyirdi dura bilmirəm. Neçə dəfə geri qaytarırdılar, yenə də qaçırdı. Bir dəfə Gəncədə artıq avtobusa minən yerdə tutmuşdular. Gördülər belə alınmır, birbaşa komandirə məruzə elədilər. Komandir də bunu qoydu öz yanında, dedi otur burda. Bu TV, bu samovar və sair hamısı sənindir. Ürəyin nə istəyir elə. Naryad da çıxma, bir nəfər sənə gözün üstdə qaşın var deyə bilməz. Belə-belə komandir onu adam elədi, öyrəşdirdi. Bax bunu hansı h/h komandiri edərdi sizcə?

Mənim bir yaxın tanıdığım var, bu Polad Həşimovun h/h komandiri olan vaxtı sürücüsü olub. Valideynləri yanına gələndə atası maşını uşağa sürmək üçün Daşkəsəndə saxlayır ki, bir az sür sonra gəlib apararıq. Bu dostumuz da səhəri gün guya öz aləmində komandirə yaxşılıq etmək niyyəti ilə arxasınca UAZ-la yox Prado ilə gedib. Bunu görən komandir onu maşından düşürdüb, qulağını dibinə 2 dənə şillə... Deyib axırıncı dəfə olsun belə şey elədiyin. O qədər sadə adam idi ki, göstərişi qəti sevmirdi.

**General-mayor Polad Həşimov xatirələrdə 24.**

**(Görün biz kimi itirmişik).**

**Xalid Zalov yazır:** General-mayor Həşimov Polad İsrayıl oğlu – 2013-cü ildə ilk dəfə hərbi hissə komandirimizi görəndə rütbəsi mayor idi. 38 yaşı vardı, polkovnik-leytenant rütbəsindən mayora endirmişdilər. Hərb karyerası boyunca həmişə ən çətin yerlərdə xidmət etmişdi. Bu səbəbdən karyerasında "vurulma"lar çox olmuşdu. Hərbin qaydaları çox sərtdir. Səndən kilometrlərlə uzaqda, düşmənlə üzbəüz postumuzda 18 yaşlı əsgər əsəblərinə hakim olmayaraq anidən nizamnamədən kənar hərəkət edibsə, hərbi hissə komandiri bunun nəticəsini hər iki mənada öz çiyinlərində hiss etməli idi.

Hörmət əlaməti olaraq "cənab polkovnik-leytenant" deyə, müraciət edirdik. Bu, qorxudan, ya da onun bunu tələb etməsindən deyil, xitab edərkən layiq bildiyimizdən – qeyri-iradi olaraq ağzımızdan bu şəkildə səslənirdi. Onun bizdən əvvəlki qəhrəmanlıqları haqqında çox danışırdılar. Mənə məlum olan faktlar o idi ki, sülh dövründə strateji əhəmiyyətli postu düşməndən azad etmişdi. Hərbi müdaxilə üçün icazə verilməyəcəyini bildiyinə görə öz resursları və briqadanın kəşfiyyat bölüyündə olan könüllü əsgərlərdən ibarət kiçik bir dəstə ilə bu vəzifənin öhdəsindən gəlib, sonradan yuxarı komandanlığa məruzə eləmişdi. Bütün briqadanı çox istəyirdi, amma bu mənada kəşfiyyatın əsgərlərini xüsusilə fərqləndirirdi. Bəzi zabitlər onun diqqət mərkəzinə düşməyə çalışsa da, müvəffəq olmurdular. Amma müqayisə üçün bir talış balası MAXE (MAHHXHQ) onun diqqət mərkəzində idi, məsələn. Çünki həmin yoldaş komandirlə bərabər əlinin əməyi ilə şəxsi

heyət üçün postlar, yeməkxana, hamam və s. tikililərin ərsəyə gəlməsində can qoymuşdu. Yəni, onun diqqət mərkəzinə düşmək üçün onun kimi zəhmətsevər, fədakar, mərd biri olmalı idin, başqa variantlar ona keçərli deyildi.

Cəmiyyətimiz özünün belə qəhrəman oğullarını tanımalıdır, ona görə xatirəsinə ithafən mənə məlum olan bəzi bilgiləri bölüşməyi özümə borc bildim.

• Bu gün sosial şəbəkələrdə 2016 aprel döyüşləri zamanı qəhrəmanlıqlarına görə ona dövlət tərəfindən bağışlanan mənzili şəhid ailəsinə verdiyi qeyd olunur. Bu məlumata tam inana bilərsiniz. Çünki mən tanıdığım Polad Həşimov cəbhədə yerləşən rayonda kirayədə yaşayırdı, şəxsi maşını yox idi. Hərdən hərbi hissənin MAXE-si ağ rəngdə VAZ2107 markalı avtomobili ilə onu hərbi-hissəyə gətirir və geri aparırdı. Baxmayaraq ki, ona bir çox imkanlar tanınmışdı, o, bu imkanları heç vaxt şəxsi mənafeyi üçün istifadə etmədi. Hətta bu gün ailəsinin Sumqayıtda yaşadığı mənzil də atası İsrayıl Həşimovun ona mirasıdır.

• Hündür boyu, xarizması, səs tonu, fiziki qüvvəsi, zəkası, mərdliyi, ədalətsevərliyi və s. müsbət xüsusiyyətləri ilə arxasıyca gediləcək bir lider idi. Bu mənada xidmətdən yayınanlara qarşı münasibəti birmənalı deyildi. Bəzi əsgərlər əlavə məzuniyyətə getmək üçün yuxarılardan zəng etdirirdi. Müəyyən səbəblərdən onların hamısını rədd etmək mümkün olmurdusa da, ara-sıra briqadanı düzüb bu halı sərt pisləyirdi. Bunun postda xidmət edən qardaşlarımıza qarşı haqsızlıq olduğunu dilə gətirirdi. Ən pis halda məzuniyyətə buraxanda əsgərlərə tapşırırdı ki, 10 gün

istədiklərini yeyəndən sonra bir kisə xiyar (pomidor) alıb yeməkxanaya gətirsinlər, burdakı yoldaşlarına da xoş olsun. Bu və bütün digər mümkün üsullarla ədaləti qorumağa çalışırdı.

• 2014-cü ilin fevralında sərt keçən qış hərbi hissəyə gələn su borusunu dondurmuşdu. Komandir bir qayda olaraq həftənin birinci günü növbətçi olurdu. İkinci gün istirahət etməli idi. Amma bu xəbəri eşidən kimi durub hərbi hissəyə gəlmişdi, bir neçə əsgərlə dağa qalxıb, dəmir su borularının altında rezin təkərləri yandıraraq bütün gün boyu hərbi hissəyə gələn suyun yenidən bərpa olunmasına çalışmışdı.

• Mənə məlum olmayan səbəblərdən bəzi zabitlər biz gənc əsgər olanda kitablarımızı müsadirə edirdilər. Həmin kitabları özləri də oxumurdu. Haçansa təsadüfən öz kitabını hansısa zabitin otağında bir küncə atılmış, tozlanmış şəkildə görürdün. Amma Polad Həşimov bu mənada tək qolu deyil, həm də başı işləyən zabit idi. İş stolunun üstündən heç vaxt kitablar əskik olmurdu.

Onun şəhidliyi gözlənilməz oldu, hamını sarsıtdı. Nə qədər qisasını alsaq da, içimizdəki yanğını söndürməz. Şəhidimiz İkinci Fəxri Xiyabanda son mənzilə yola salındı. İstərdim ki, şəhidimizə ölümündən sonra "Azərbaycan Respublikasının Milli Qəhrəmanı" fəxri adı verilsin. Çünki o qəhrəman kimi yaşadı, qəhrəman kimi dünyadan getdi. Tabeçiliyində olmuş minlərlə

qulluqçular üçün nümunə oldu. Həmişəlik bu xalqın ürəyində yer qazandı. Allah rəhmət eləsin!

## General-mayor Polad Həşimov xatirələrdə 25.

## (Görün biz kimi itirmişik).

*"Qarabağı tam azad edəndən sonra paylaşar mənim haqqımda"*

Şəhid general facebookda özü barədə yazılan statusu sildirdi: "Qarabağı tam azad edəndən sonra paylaşar mənim haqqımda"

**Tofiq ShahMuradov yazır:** 2017-ci ildə Polad Həşimov barədə paylaşım etmişdim facebook profilimdə Aprel döyüşlərində göstərdiyi şücaət barədə Statusu bir necə səhifəmdə paylaşmışdım

Paylaşımdan biraz sonra Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Polkovnik Vaqif Dərgahlı zəng etdi, salamlaşıb hal-əhval tutandan sonra Vaqif müəllim o paylaşımı silməyimi xahiş etdi,səbəbini soruşanda dediki Polkovnik Polad Həşimov zəng etmişdi mənə, sənə əvvəla salam söylədi və təşəkkür etdiyini bildirdi xahiş edirki onun haqqında olan paylaşımı silim, Qarabağı tam azad edəndən sonra paylaşar mənim haqqımda.

## General-mayor Polad Həşimov xatirələrdə 26.

## (Görün biz kimi itirmişik).

***<u>Daşkəsəndə öz hesabına məscid tikən şəhid generalımız</u>***

**Yusif Mammadhuseynov:** Hərkəs bildi Polad Həşimovu, amma kimsə tanımadı... Mən də onu bilirdim, tanımırdım, tanıtdılar, tanıdım, tanıdıram... 17 ildir onu tanıyıram, amma üst-üstə 5 dəfə mi görmüşəm yoxsa 6 dəfə mi onu belə xatırlaya bilmirəm. Görməməyimin səbəbi onun daima işinin başında olması olmuşdur. Həm ailəsi belə onunla əsgərlərindən çox vaxt keçirtməyibki. Bir insanın nə qədər sadə ola biləcəyini öyrətdi mənə. Niyə hərkəsin bilməli olduğu əziyyət və yaxşılıqlarının üzə çıxmasına mane olduki?

Xalqının sənin haqqında bilmədiyi çox şey var:

-Misal: Onlar bilmir ki, sən Daşkəsəndə öz hesabına məscid tikdirmisən və yerli camaat ona sənin adını verib: Polad Məscidi .

-Misal: Onlar bilmir ki, sən APREL döyüşlərində işğal olunmuş torpaqların bir hissəsini geri qaytardın.

-Misal: Onlar bilmir ki, sən APREL döyüşlərində geri qaytardığın torpaqlarda qazılan yeni səngərlərin vəziyyətinə və əsgərlərin orda tam məskunlaşdığına əmin olmamış o ərazini tərk etmədin. Bütün rəhbərlik o torpaqları azad etdikdən sonra geri qayıtdığı halda sən 1 aya yaxın müddət ordakı vəziyyətin normal olduğuna əmin olmadan ərazini tərk etmədin...

-Misal: Onlar bilmir ki, qərargah rəisi döyüş zamanı arxada olmalı olduğu halda, sən hər zaman ön cəbhəyə can atdın

-Misal: Onlar bilmir ki, tikintisini başa çatdıra bilmədiyin evinin yarımçıq qalmış balkonunda "burda oturub, dağlara baxaraq çay içərəm" arzun puç oldu.

-Misal: Onlar bilmir ki, yanına bir neçə əsgər alaraq düşmən postlarına gedib oranı təmizlədikdən sonra erməni traktoruyla qayıtdın geri.

Daha nə qədər misal çəkim ki, Posta qaçan General? Dünən yeri göyü titrədən o izdiham xalqın səni nə qədər sevdiyinin nişanəsidir... Nəslimizin qüruru PoladHəşimov.

Poladı

Olan

Səngər

Təhlükəsizdir

Cənab General Həşimova Əsgər Məmmədhüseynovdan Sevgilərlə...

**General-mayor Polad Həşimov xatirələrdə 27.**

**(28 qısa-qısa xatirə)**

**Samir Mahmudov:** Qardaş bu insan haqda nə qədər danışsaq azdır Komandirim olub əvəz olunmaz KOMANDİR əvəz olunmaz insan

**Amil Hesenov:** 2009 2011ci illərdə Daşkəsən də mənim herbi hissə kamandirim olub cox gozel insan allah rehmet etsin general-mayor Polad həşimov

**Турал Гасанов:** Can qardaş məndə bu kişi ilə 2000 - 2001-ci illərdə Murovda olmuşam gözəl insan indi ruhuna salavat

**Nizami Zalov:** Əsgərini, vətənini sevən kamandir. Hərbi hissə komandirim olub.Allah rəhmət eləsin.Görərdi bir əsgər iş görür,yanınnan düz keçməzdi,kömək edərdi.

İki dənə post almışdı ermənilərdən.hər ay meyvə su alıb posta əsgərləri ziyarətə gedərdi.

**Fuad Muradlı:** General Mayor Polad Həşimov mənimdə komandirim olub. Hər kəs o dağ kimi uca vüqarlı, o əsil komandirimizi uğrunda öləcək qədər çox sevirdik. Hərbi hissənin qarşısına çıxanda, danışanda, yeriyəndə hamımız onunla qürur duyurduq. Əsgərlərin yeməyinə diqqət edirdi, əsgərləri kimsənin incitməsinə izin vermirdi, əsgərlərin halını, problemləri varmı deyə soruşurdu. O mənim ən əziz komandirim idi. Onun qisasını almadan yaşamaq mənə haram olar.

**Elmeddin Shefqetov:** Bəli Səmədov, doğurdan da kamandirimiz çox qayğıkeş, mərd insan idi. Bu uca şərəfli mərtəbəyə yalnız elə insanlar ucala bilir.

**Aqshin Arif:** Çox heyif,Murovda bir yerde qulluq etmişik.Ya şı oğlan idi.ALLAH rehmet elesin.Heyif,heyif,heyif

**Turxan Aslanov:** O insan mənim komandirim olub. Həqiqətən bu ölkə üçün, Vətənimizçün əvəzedilməz xidmətləri çoxdur. Danış danış qurtarmaz. Sadəcə Allahdan onun şəhidlik zirvəsinə ucalmağı arzu edirəm İnşəAllah.! Amin. Şəhidlər ölmür, o insan onu tanıyan qəlblərdə yaşayacaq.!

**Mirsadiq Seyyidtagizade:** 2005 ci ilde Biz tovuzda Xidmet edende, Tovuzda N saylı Herbi Hissenin MTB birqada idi, çox qayğıkeş insan idi Allah ruhunu Şad elesin Komandir.

**Ferid Elizade:** 2009 2011 ci ildə də bizim komandirimiz olub.merd kiwi idi.Allah rəhmət eləsin.

**Vaqif Shirinzade:** Polad Həşimov mənim də h/h komandirim olub. Əsl zabit və əsl komandir idi. Çox böyük zabitimizi itirdik!!! Hələ də inanmağım gəlmir. Ruhu şad olsun.

**Fehmin Meherremov:** 2011 2012de xidmet elediyim herbi hissenin kamandiri vezifesindeydi.cox gozel zabi eyni zamanda cox gozel insan idi.

**Kamran Jalilov:** 2010-2011 H/H komandirimiz olub. Hemiwe eskerin qeydine qalan zabit olub. Ruhun Şad Olsun Cenab General

**Nihat Tahirbəy:** Mənimdə komandirim olub. Onda cavan kapitan idi. Murovda tabor komandiri. Onun yüksək əxlaq nümunələrindən danışmaqla bitməz. Başın sağolsun vətən

**Ali M-li:** Allah şəhadətini qəbul etsin. 2010-2012 illerde komandirim olub. Vətənpərvər insan kimi insan olub.

**Ferid Quliyev:** 2012-2013 cü lillerde menimde herbi hisse komandirimiz olub , super insan idi , esl igid esl oğul. Nur içinde yat sadece tesüff edirem hasısa şerefsiz seni öldüre bildi.

**Raqif Agayev:** 2006-2007-də briqada komandirimiz olub. Onun gəlişi ilə briqadanın halında müsbət dəyişiklər olmuşdu. Hətta onun imzası ilə fəxri fərman alımışam. İndi də qoruyub saxlayıram.

**Afiq Alicanov:** Bir qohum kimi ondan daim xoş sözlər eşitdim. Cənab general sizin kimi generallar təəssüf ki, çox azdır. Bir daha Allah rəhmət eləsin.

**Perviz İsmayilov:** Mən fəxr edirəm ki, 2003-də Murov dağında belə bir qəhrəmanın əsgəri olmuşam.

**Semsi Huseynov:** 2004-cü ildə N saylı hərbi hissədə emto briqada idi. Vətənpərvər və gözəl insan idi.

**Esmira Zeynalova** Bir şeyə təəssüf edirəm. Biz niyə belə insanları öləndən sonra tanıyırıq niyə? Olmazdı ki belə oğullarmızı ölməmişdən tanıyaq , qiymət verək. Onun ailəsi də bəlkə mən düşündüyümü düşünür. Ümid edirəm ki hökumətimiz heç olmasa generalımızın ailəsinin qayğısına qalacağ. General sən əbədi xalqın qəlbində yaşayacaqsan. Nur içində yat.

**Raşid Abdul:** Mənim qərargah rəisim idi. Azərbaycan öz oğlunu itirdi. Oradakı əsgərlərə böyük dayağı ilə mən hər zaman fəxr edəcəm. Dəxr edəcəm ki cənad generalla birgə xidmət etmişəm.

**Emil Doktor:** Mənim də komandirim olub. Əsl general adına layiq bir insan. Hələ də inanmağım gəlmir. Niyə məhz bu insan?

**Cavan Alizade:** Allah rəhmət eləsin. 2003-cü ildə mənim tabor komandirim olub. O zaman mayor idi. Sakit və təmkinlə danışardı. Hər bir əsgərin qayğısına qalardı. O tabor komandiri təyin olunan gündən aylıq əsgər pulunu tam şəkildə almağa başladıq. Çox gözəl insan idi. Xoş halın şəhidlik zirvəsinə yüksəldi.

**AgaNatiq GS:** Bizim hərbi hissə komandiri idi. 2010-da Daşkəsəndə zabitlər içində onun kimi gözəl bir insan görməmişdim. Hərbi hissədə zabitlərə imkan verməzdi ki, əsgəri incitsin. Mən onun kimi gözəl zabit tanımamışam.

**Ramil Aliyev:** Mənim komandirim idi hərbi hissədə. Əsl peşəkar zabit və gözəl insan idi. Heyf.

**Araz C-ov:** Polad ermənilərin qənimi idi. Polad vətənini həddən artıq çox sevirdi. Çiyin-çiyinə döyüşdüyümüz vaxt olub. İmkan verməzdi əsgər getsin qabağa. Həmişə öndə özü gedərdi. Sən bizə çox lazım idin. Ruhun qarşısında günahkaram cənab general-mayor Həşimov!

**Elmir Mirzə:** Hərbi hissədə hərbi hissə komandirim olub. Əsgərinin ayağı daşa dəyməsini istəmirdi

## General-mayor Polad Həşimov xatirələrdə 28.

**Bəhlul Həkim yazır:** Dünən başımı qirxdirirdim, söhbət necəsə gəldi çıxdı generalın üstünə. Gördüm bər-bər kövrəldi. Dedi mən onun əsgəri olmuşam.

Mina axtaranlar bölüyündə qulluq etdiyini dedi. Bir hadisəni danışdı.

- Bir dəfə generala xəbər verdilər ki, bir gizir dembel əsgərlərdən pul alıb onlara bəzi azadlıqlar verir. Məsələn: üz qırxmamaq, kəmər taxmamaq və s. General həmin giziri briqadanın qarşısında çox sərt şəkildə tənqid etdi. İşdən çıxarilma əmrini yazıb rəhbərliyə göndərdi.

## General-mayor Polad Həşimov xatirələrdə 29

**General Həşimovun əsgəri: "Şəhid olmazdan iki gün əvvəl..." – Müsahibə**

Kulis.az şəhid general Polad Həşimovun əsgəri Ələsgər Əsgərlinin komandiri ilə bağlı müsahibəni təqdim edir.

- General-mayor Polad Həşimov siz hərbi xidmətdə olarkən hansı rütbədə idi?

- İlk öncə komandirimə Allahdan rəhmət diləyirəm. O vaxt Polad Həşimov polkovnik-leytenant rütbəsində idi.

- İlk dəfə onunla necə tanış oldunuz?

- Oktyabr ayının 2-də hərbi hissəyə gəldiyimiz gün bütün əsgərləri başına topladı. Gözəl nəsihətlər, təsəllilər verirdi.

Darıxmamağımızı istəyir, bunun üçün bizə müsbət enerji ötürürdü.

- Nələr söyləyirdi?

- İlk günlər hərbi xidmət mənə sıxıcı gəlirdi. Bütün hərbiçilər gözümdə eyni idi. Şablon sözlər, söhbətlər heç nəylə fərqlənmirdi. Amma daha sonra anladım ki, sözlər önəmli deyil. Onu dilə gətirən Daşkəsənin buz kimi soyuq havasında isti qəlbindən çıxan səmimiyyəti idi. Polad Həşimovun necə səmimi və gözəl qəlbə sahib olduğunu daha sonra anlayacaqdım. Bizə həmişə möhkəm olmağı, vətənə layiqli xidmət etməyi, özümüzü qorumağı tapşırırdı.

- Polad Həşimovla ən çox nədən söhbət edirdi?

- Bizə əsgər kimi yox, yaxın dost kimi münasibət göstərirdi. Şəxsi söhbətlərində də, əsgərlər içində olanda da. Çox dəyərli nəsihətlər verir, hərbin sirlərini, çətinlikdən çıxmağın yollarını öyrədirdi.

- Ən yaddaqalan günləriniz hansı olub?

- Ən yadda qalan bir gün var. Onu günün bu günü də xatırlayıram. Bu, 31 dekabr, Yeni il günü idi. Posta qalxmışdıq. Üstəlik, hava çox soyuq, şaxtalı, qarlı idi. Belə bir havada dağa qalxmalı idik. Bütün əsgərlərlə bir yerdə hərbi maşınlara mindik. Dağa qalxdığımız vaxt, sən demə, Polad Həşimov da öz xidməti maşını ilə arxamızca gəlirmiş. Biz posta çatanda Həşimov da özünü bizə çatdırdı. Onu görəndə təəccübləndik. Bizi yanına çağırdı, tapşırıqlarını verdi və maşınından bir baqaj dolusu hədiyyə, şirniyyat çıxardı. Onları bizə verdi. O an əsgərlər çox sevinmişdi. Həm də bayram idi. Çətin günlərimizdə hər vaxt

yanımızda olur, bizimlə söhbətlər edirdi. Hiss edirdi ki, analarımız, atalarımız üçün darıxırıq.

- Əsgərlərlə münasibəti necə idi? Başqa nə köməkliklər edirdi?

- Posta qalxdığımız gündən sonra Polad Həşimovu bir də görə bilmədik. Xidməti başa vurmağımıza 4 ay qalmış onun rütbəsi qalxmış və yeni vəzifəyə getmişdi. Polad komandir bu yaxınlarda yadıma düşmüşdü. Bilmirəm, nəyə görə. Şəhid olmazdan iki gün əvvəl...

- Necə yadınıza düşmüşdü?

- Qəfil ağlıma gəldi. Heç gözləmədiyim vaxtda. Dediyim kimi, heç özüm də anlaya bilmədim.

- Onunla bağlı başqa nə kimi xatirələriniz var?

- Elə danışdıqlarım qədər. Onun əsgərlərə dost kimi qayğısı heç vaxt yadımdan çıxmaz.

- Əsgərləri onun haqqında nələr danışırıdı?

- Hamı başına and içirdi. Əsgərlər arasında böyük hörmət qazanmışdı. Köhnə əsgərlərindən eşitdiyimiyə görə, tək başına ermənilərin iki traktorunu gətiribmiş.

- Necə?

- Təzə gəldiyim vaxtlar əsgərlər onun haqqında çox yaxşı danışırdılar. Qəhrəman komandir, hərbi hissənin canavarı deyirdilər.

- Deyilənə görə, postlara əsgərlərlə birlikdə odun, yemək daşıyırmış...

- Onu görməmişəm, yalançı olaram. Amma daim əsgərlərin yanında olub. Özünü heç vaxt onlardan yüksəkdə tutmayıb. Deyirdi ki, siz belə ağır şəraitdə vətənə xidmət edirsiniz, siz çox şərəfli yoldasınız...

- Əsgərlərlə birgə yemək yeyirdi?

- Özüm görməmişəm, amma eşitdiyimə görə onlarla birgə dəfələrlə yemək yeyib. Ümumiyyətlə, Həşimov əsgərlərə çox yaxın, isti münasibət göstərirdi. Qaydanı pozan əsgərləri ilk öncə tənbeh edirdi, sonra ona qaydaları səbirlə başa salırdı. Əsgərlərin rahatlığı üçün hərbi hissədə təmir-tikinti işləri aparırdı. Bütün bunları bizim rahatlığımız üçün edirdi. Bunları unutmaq mümkün deyil.

- Şəhid olanda nələr hiss etdiniz?

- Xəbərlərdə adını eşidəndə duruxdum. İnanmadım. İnana bilmədim ki, Azərbaycan ordusu belə bir insanı necə itirə bilər.

- Çox adam onu şəhid olandan sonra tanıdı.

- Hə. İgid ölər, adı qalar çox doğru söz imiş.

## General-mayor Polad Həşimov xatirələrdə 30

***"Kazarmanı isitmək üçün özü odun doğrayırdı…" – General Polad Həşimovla bağlı XATİRƏ***

Şəhid general Polad Həşimovla vaxtilə hərbi xidmət keçmiş jurnalist İlham Tumas sualları cavablandırıb.

NOCOMMENT.az onunla olan müsahibəni təqdim edir:

– İlham bəy, tarix Azərbaycanın qəhrəman oğullarından biri general-mayor Polad Həşimovun şəhid olduğu günü unutmaz. Onunla tanışlığınız necə olub?

– Poladla tanışlığım 1996-cı ildən başlayıb. O vaxtı Murovda hərbi hissədə zabit kimi xidmət edirdim. Polad o zamanlar bölük komandiri idi. Polad qeyri-adi insan idi. Onun ən böyük üstünlüyü əsgərləri övladı kimi sevməsi idi. Murov kimi soyuq bir yerdə kazarmanı isitmək üçün Polad özü odun doğrayırdı. O, zabit maaşı ilə kazarma təmir etdirirdi, əsgər kazarmasına televizor alıb verirdi. Belə böyük bir ürəyə sahib zabit idi.

Mən ordudan tərxis oldum, Polad isə qalıb hərbi xidmətini davam etdirdi, general rütbəsinə kimi yüksəldi. Onunla mülki həyatda məzuniyyətə gəldiyi vaxt, doğulduğu Qəbələ rayonunda, hərbi hissə komandiri olduğu yerdə bir neçə dəfə görüşdük. Polad həmişə sadə və təvazökar qaldı. Şəhidliyi də göstərdi ki, Polad hərb sahəni gözəl bilməklə yanaşı, həm də sadə və dəyərli vətəndaşdı. Nə rütbəsi, nə də vəzifəsi onu dostlarına, zabit yoldaşlarına qarşı mənasız yerə qürurlu etmədi. Həmişə sadə və təvazökar idi.

– Şəhadətindən sonra generalın vətən uğrunda göstərdiyi qəhrəmanlıqlardan çox danışıldı. Polad Həşimov barəsində keçmişdə danışmaq necə bir hisdir?

– Tarixdə elə sahələrin ustadları olur ki, onların itkisi yalnız öz sahələrinin yox, bütün cəmiyyətin itkisi olur. Hərbdə də belədir. Polad elə bir zabit idi ki, onun itkisi təkcə yaxınları, doğmaları, zabit dostları, eləcə də tabeliyində olan əsgər və zabitlər üçün yox, ümumilikdə Azərbaycan ordusu və cəmiyyəti üçün bir itkidir.

Ümumiyyətlə, istənilən orduda Polad kimi zabitlər çox olmur. Belə zabitlər tək hərbi bilikləri ilə yox, həm də şəxsiyyətləri, şəxsi heyətə münasibətləri, mərdlikləri, qeyri-adi insani xüsusiyyətləri ilə fərqlənirlər.

Biz general Həşimovdan daha gözəl nailiyyətlər gözləyirdik. Deyirdik ki, Polad Həşimov, inşallah, işğal olunmuş ərazilərimizin azad olunmasında da iştirak edəcək. Təbii ki, Polad Həşimov haqqında keçmişdə danışmaq çox ağrılıdır…

– Nə zaman Polad Həşimovun qisası alındı deyə bilərik?

– Tək Polad Həşimovun yox, ümumiyyətlə, birinci Qarabağ savaşından başlayaraq şəhid olmuş hərbçilərimizin, eləcə də erməni terroru nəticəsində həlak olan mülki vətəndaşlarımızın qisası Azərbaycan əraziləri tam şəkildə işğaldan azad olunan vaxt alınmış sayılacaq. Şəhidlərimizin qisasını bütün ərazilərimizdə Azərbaycan bayrağı dalğalananda almış olacağıq. İşğal altında olan ərazilər Azərbaycan dövlətinin hüququ altında olanda sakitləşəcəyik. O zaman hətta Cümhuriyyət dövründə canlarını fəda etmiş zabitlərimizin də ruhu hüzura qovuşacaq. Çünki erməni terroru tək XX-XXI əsri əhatə etmir.

– Sizcə, Polad Həşimovun ruhuna lazımi səviyyədə sevgini, ehtiramı göstərə bildikmi?

– Polad bizim müstəqil dövlətimizin ilk şəhid generalıdır. Bundan əvvəl 1991-ci ildə Xocavənd rayonunun Qarakənd kəndi üzərində Azərbaycana məxsus helikopter ermənilər tərəfindən vuruldu. Nəticədə Baş prokuror İsmət Qayıbov, Daxili İşlər naziri, general Məhəmməd Əsədov şəhid oldu.

General Polad Həşimov da onlar kimi döyüş şəraitində öz xidməti vəzifəsini yerinə yetirərkən şəhidliyə qovuşdu. Hesab edirəm ki, həm dövlət səviyyəsində, həm xalqımız general Həşimovu hansı böyüklükdə, hansı ehtiramla sevildiyini göstərdi. Ölkə başçısı və bir iş adamı tərəfindən zabitimizin ailəsinə mənzil hədiyyə olundu. Təbii ki, bunlar onun bədənini əvəz etməz, amma hər halda bu, böyük bir ehtiramdır.

Cəmiyyətimiz şəhidə həmişə yüksək ehtiram göstərib. Dostumuz, Azərbaycanın ilk hərbi diktoru Şəmistan Əlizamanlının gözəl bir sözü var, şəhidin iqtidarı, müxalifəti olmur. Doğurdan da belədir. Etiraf etməliyik ki, şəhidlərimizə ehtiram göstərilməsi məsələsində heç qüsurumuz yoxdur. Həm iqtidar, həm müxalifət, həm xalqımız bu məsələdə yekdildir.

– General rütbəli bir şəxsin səngərdə vurulması generallar haqqında fikirləri alt-üst etdi. Onun haqqında bilmədiyimiz daha nələr var?

– Polad Həşimovun döyüşdə şəhid olması bəzi suallar da doğurdu. Ancaq ən çox bir ifadə işləndi ki, generalımız əsgərlə bir yerdədir. Allah bütün şəhidlərimizə rəhmət eləsin, həmişə deyirdilər ki, filankəsin18 yaşı var idi, axı onun şəhid olası vaxtı deyildi. Təbii ki, Poladın, polkovnik-leytenant, kəşfiyyatçı Raquf

Orucovun və digər yüksək rütbəli zabitlərimizin şəhid olması Azərbaycan ordusunda zabitlərimizin öz əsgərlərinin yanında olduğunu göstərir. Onlar döyüşdə öndə gedirdilər, arxadan yox, irəlidən komanda verir, əsgərləri də öz arxalarınca aparırdılar.

Polad Həşimov haqqında danışan insanları sıralasaq mən onlardan lap axırda danışmalıyam. Çünki Poladla döyüş yox, zabit yoldaşı olmuşuq. 1996-2000-ci illərdə müharibə şəraiti olsa da, biz döyüş bölgəsində olsaq da, Poladla döyüşə girmək şərəfinə nail olmamışam. Amma Polad sonralar, 2016-cı ildə Aprel döyüşlərində də iştirak etmişdi.

– Generalın adının gələcək nəsillərə çatdırılması üçün hansı işlər görülür?

– Polad haqqında kitab hazırlanır. Artıq Həşimovla bir yerdə kursant olmuş çox yaxın dostları ilə əlaqə saxlamışıq, onların fikirləri də bu kitaba salınacaq. Bu, mənə və bu işə kömək edən dostlara Polad haqqında bilmədiklərimizi öyrənməyə kömək edəcək.

Teleqraf.com

## General-mayor Polad Həşimov xatirələrdə 31

Şəhid anası: "Kimdən oğlumu soruşmuşamsa deyib, ana sənə halal olsun, etdiyi yaxşı işləri dilə gətirməzdi mənim oğlum. Qazandığı da xeyirxah işlərdə idi. Əsgərlərinə uşaqlarım deyirdi. Evə gələndə onlar üçün orduda lazım olan ləvazimatlardan alıb aparırdı.

Şəhid generalımızın anası oğlundan danışdı: Adını Polad qoyduq, polad kimi oğul oldu

Azərbaycan ordusunun iyulun 14-də Tovuzda şəhid olan general-mayoru Polad Həşimovun anası Səmayə Həşimova oğlu barədə xatirələrini Bizimyol.info ilə bölüşüb.

"Adını ata babası qoyub. Babası müharibə veteranı idi. Dedi adını Polad qoyuram ki, polad kimi oğlan olsun. O zaman biz də poladəritmə zavodunda işləyirdik. Sumqayıtın 50 illiyinə dair fəxri kitabında adımız var. Mən də atası da fəhlə olmuşuq.Metal zavodunda işləyə işləyə böyütmüşük onu. Mən balaca vaxtı ona Dovşan deyirdim. Hətta böyüyəndə də. Bir gün dedi ki, daha mənə dovşan demə, uşaqlar mənə gülür. Ailəsini çox sevirdi, amma əsgərlərini ailəsindən də çox. Sadə adam idi. Yaşayışından bəlli olmurmu. Hətta general rütbəsi alanda belə, təmtəraqla qeyd eləmədi. Onu general kimi görüm deyə , kostyumu əlində evə gəldi. Xeyir duamı aldı.Uşaqlıqqdan vətənə hərbə marağı vardı, hələ baxçada ilk şəklini də avtomat oyuncağı ilə çəkdirmişdi. O general olana qədər çox əziyyət çəkib, ömrü döyüş bölgəsində keçib. 18 yaşında səngərdə samanın üstündə yatıb. Əlaçıydı məktəbdə. Mənim arzumla hüquq fakultəsinə hazırlaşırdı. 90-cı illərdə müharibə başlayanda dedi ki, hərbi məktəbə gedəcəm. Müəllimi deyib ki, əsl kişi belə vaxtda hərbçi olmalıdı.O bu sözü

götürmədi.Hərbiyə getdi, qəbul olundu.”,- deyir Səmayə ana.Amma qürurulanır, ürəyi yansa da evinin yox, elinin oğlu olmuş balasından fəxrlə danışır.

“Kimdən oğlumu soruşmuşamsa deyib, ana sənə halal olsun, etdiyi yaxşı işləri dilə gətirməzdi mənim oğlum. Qazandığı da xeyirxah işlərdə idi. Əsgərlərinə uşaqlarım deyirdi. Evə gələndə onlar üçün orduda lazım olan ləvazimatlardan alıb aparırdı.

Mən ona verilən evin şəhid ailəsinə verməsi barədə xəbəri öz dilindən eşitməmişəm, insanlar deyib. Əgər həqiqətən belədirsə, mənim bir sözüm yoxdu. Atası da beləydi.Bircə dənə 3 otaqlı mənzili var”.Son olaraq təsəllisinin dövlət başçısının Səmayə anaya verdiyi sözdür.

“Prezident İlham Əliyev mənə zəng vurub baş sağlığı verdi,oğluma Allahdan rəhmət dilədi. Və dedi ki, onun qanı yerdə qalmayacaq.Vətənimiz işğaldan azad olsun, mənim balamın və bütün o torpaqlar uğrunda qanı tökülənlərin qisası alınsın, istədiyim budur”.

Bu bütün Azərbaycanın amalıdır, Səmayə ana.Oğlun dünyadan torpağa yox xalqın ürəyinə köçüb. Vətən üçün dəniz kimi coşmuş ürəyinə.

**İlhamə Rəsulova**

## General-mayor Polad Həşimov xatirələrdə 32

**Əsgərləri ilə birgə namaz qılan şəhidimiz**.

**İlkin Veliyev:** General Polad Həşimov kamandiri olduğu herbi hissede əsgər olmuşam.general namaz qilan əsgərlər uçun namaz otağlari duzəltmisdi.bir gun gunorta namazina getdim.namaz vaxt gördum solumda bir zabit namaz qilir.təbbi ki namaz uste olduğumda kim olduğunu hemin an bilmedim.sonda gördum general əsgərlərnən bərabər namaz qilir.səmimi.insanlığını her şeydən ustun tutan general.

ALLAH RƏHMƏT ELƏSİN

## General-mayor Polad Həşimov xatirələrdə 33

**Tayfun Şabranbeyli:** Salam. General mənimdə komandirim olub. Bir dəfə postdakılar bizim istiqamətdə uzaqdan bir qaraltının onlara tərəf gəldiyini görürlər. Vinokolla dəqiq baxanda görürlərki komandir. Bir çiynində soyulmuş qoyun cəmdəyi o birində bir qazan. Qaçıb kömək edirlər. Posta çatanda özü kabab çəkib qazana dolduru deyir ki kababı paylayın hamıya amma qazanı qaytarın mənim deyil. Zarafatla deyirki evdəki komandirindi. Məni evə buraxmaz. Zatən ayda ildə bir iki dəfə evdə olardı yada yox.

## General-mayor Polad Həşimov xatirələrdə 34

**Anar Fettayev:** Salam biz sancastda qulluq edirdik. Bir gun gece saat 3-e qalirdi zeng geldi sancasta ki kamandir hekim isteyir. Qonagi var idi korpusdan. Palkovnik biz de naryad oldugumiza gore Ferecov Sebuhi hekimle birlikde {biz esgerdik} getdik otagina. Meruze edib emrini sorusduq. Dedi ki rahat olsun buslatlarinizi cixardin qonaq gelen palkovnikin qizdirmasi 39.8 idi. Ona ilk yardim gosterdik ve dedi ki qizdirmasi 36-ya dusene kimi burda gozleyin. İki saata yaxin oturduq. Esgerine bize meyveden tutmus sirniyat caya kimi vermesini istedi. Sual verdim ki yoldas palkovnik siz her gun 4-e kimi herbi hissede olursuz seher tezden de razvotda burda olursunuz. Dedi: Esger kisi ki saat 2-den tez eve getdi onun sozu evde kecmir, arvad sozu ile oturub durur sonra gulumseyib dedi zarafat edirem menim evimde yurdumda buradir. Herbi hissem, sizleri bizlere tapsiriblar mende buranin atasiyam ata da hara gedir getsin evinde olmalidir. Men burda rahatliq tapiram dedi ve mene dedi: Esgerlikden sonra calis eve tez get ki narahat olmasinlar. Herbi hisse kamandiri olmagimiza baxmayaraq ele bilin en ezizimizi sehid verdik helede inana bilmirem o cur qardas itirdik Allah qeni-qeni rehmet etsin.

## General-mayor Polad Həşimov xatirələrdə 35

**Abdullayev Ramiz:** Salam. 2001-ci ildə mənim tabor komandirim olub. İnsan kimi, hərbiçi kimi təkrarsız insan idi. "N" saylı hərbi hissənin 3-cü taborun komandiri idi. Sevimli serjantı olmuşam. Üstündən 15 il keçəndən sonra mən artıq zabit idim. O isə Bərdə korpusunun qərargah rəisi. Kursa gedən zabitlərdən imtahan götürürdü. Mən turnikdə 8 dəfə normativ üzrə dartınmalı idim. Lakin 7 dəfə dartındım. Gəlib yaxınlaşdım və tanışlıq verdim ki siz mənim tabor komandirim olmusunuz bir turnikə görə məni saxlamayın kursdan. Cənab general dediki, Abdullayev sən normativi ver sənin Bakıda xərcliyini verəcəm. Amma kənardan deməsinlər ki Polad kiməsə göz yumdu. Həqiqətən də növbəti dəfə mən normativi verdim özü çağırdı ki mən sənə söz vermişdim. Al 400 manatdır. Bakıda xərclə. Əlbəttə mən almadım amma mənim komandirim bunu göstəriş üçün etmirdi. Dediyinin ağası idi cənab general. Allah rəhmət eləsin

## General-mayor Polad Həşimov xatirələrdə 36

**Tayfun Şabranbeyli:** Polad hərbi hissə (Daşkəsəndə) komandiri olan vaxt postda kazarma tikilirdi. Tikinti materialları aparan kamaz hökmən neytral ərazi dediyimiz yerdən (atəş xəttindən) keçir. Sürücü qorxur deyirki atırlar keçə bilmərəm. Polad çöldən sürücü tərəfə özünü sipər edib sür demişdi. Bu materiallar hökmən posta çatmalıdı.

## General-mayor Polad Həşimov xatirələrdə 37

**Вусал Гулузаде:** 2009 ilin eveleri idi soyuq qis idi bize yeni bir h.h komandiri teyinat almiwdi onun hakda ewitdiyim tekce bu idiki Qebeledendir ve Sumqayitda h.h komandiri olub ordan bize teyinat alib. neyse mende istehkamci odugum ucun bizin bolukden 5 esger secildi onlardan biride men idim.

Bu ilk goruw idi Polad Hewimovla bizi h.h komandirin mawini ile apardi 2 batalyona bizle ciyin ciyine hansi iwi goreceyimizi bildirdi duzu bir siravi esger kimi inana bilmirdmki polkvnik leytnant h.h komandiri esgerle bu cur semimi mehriban temas qurur bizim iwimiz ise agir idi Kelbecerle uzbe-uz olan postlara yol acmaq idi cunki esgerle yay uzunu 10 km uzaqliqdan bellerinde posda qiw ucun odun dawiyirlar.

Polad Hewimov bunun esgerin yox mawin vasitesile dawinmali oldugunu duwunurdu. Yəni qisa deyimki o postlara acilan yolu insan duwunse aglina gelmezki hardan hara yol acmaq. Ilk baxiwdan bu munkunsuz gorunur ama Polad Hewimov iwguzar zabit idi ve xidmet eden esgerleride cox sevirdi neyse bizle birge daglarin eteyin hansiki yol acilacaqdi orani partladib balaca dt75 esimiz vardi tez tezde xarab olurdu. O da dagilan torpagi yayib yol acmaga bawlayirdi duzu boluk komandirim ve biz esgeler bunun munkun olmayacagini deyirdik. Amma ne edek qanun qanundu hami ona tabe olmalidir. Her gun Polad Hewimov yanimzda olurdu arada oz cibinin pulu ile de nese alib getirirdi. Sonra Polad Hewimov dedi ki Murova getmek lazimidi. Korpus komandirinden xaiw

etmiwem hele icaze vermeyib biz de donub qalmiwdiq ki Murov niye sora geldi ki bes uc esger Polad Hewimov bir de bizim boluyun resi Murova getmeliyik yolda bawa duwdum ki Murovda neytral zonada ermenilerle yaxin mesafede boyuk bir teze birde dt75 qalib.

Demeli 3 gun gozledik ki hava dumanli olsun dumanda artiq hansi mesafeden girmek lazimdir Polad Hewimov artiq bele deyek xeritesin cizmiwdi. Duzdu hec bir esger o prosesde iwtirak etmedi. Polad Hewimov ozu o prosede iwtirak etdi. Ermeniler gec bildiler ne qeder atmiwdlar esin her yeri gulle yeri idi.

Belelikle dt75 Murovdaki briqadaya verdi hansi ki onlar bunu cixara bilmemiwdiler. Esi ise Dawkesene getirdik.

Daglara yollarin acilmasinda esgerler veziyet cekmesin deye o bunu edirdi duzu ele yerler varki heyacandan unuduram sora yadma duwur qayidim onun wexsi xasiyeti haqda.

Balaca zehmli gozleri uca boyu qeribe ses tonu etdiyi hereketler gozumun onunden getmir adam cox qeribe xususiyetlere malik idi o insan bilmirem nece izah edim. Postda xidmet edenleri cox sevirdi onun bizimle birce defe nese asaglayici hereketin gormedim.

Ozu bizimle ciyin ciyine dayanirdi arada oglunda getirirdi bizim yanimza. Defndeki video kadrlara baxdim taniya bilmedim mawalah boyuk uwaq olub artq. O vaxti olardi 2 yada 3 yawi. Yeni onun hakda cox daniwmaq olar sadece bir parca daniwdim.

Demek isteyremki indi bawa duwuremki o siradan bir zabit deyldi hec bir zabit esgerin onun hakda pis duwunduynu ewitmedim o bizle boyuk qardaw kimi davranirdi

Onun kecen il general aldigin baxdim sevincden az qala ucurdum

Allah cemi sehidlermze rehemt etsin olumu ile aglamaqdan ureyim partlayirdi o bele tez bizi terk etmemeliydi. O Susaya bayraq sancmali idi o esl vetenperver bir ogul idi. Men veten sevgisin o insandan oyrendim o menim tekce komandirm yox hemde muelimim oldu. Hal hazirda Rusiyadayam insalah qismet olsa Bakiye duwduyum gun ilk gedeceyim yer onun mezari olacaq.

Bir omur seni sevgi saygi ehtiramla aniram menim sevimli komandirim. Hormetle senin esgerin.

**"Mən fəxr edirəm ki, atam şəhidlik zirvəsinə ucaldı".**

**Polad Həşimovun oğlu: "Mənim atam, həqiqətən, igid, qəhrəman insan olub"**

**"Mən fəxr edirəm ki, atam şəhidlik zirvəsinə ucaldı".**

**Oxu.Az-ın məlumatına görə, bunu Fəxri Xiyabanda keçirilən dəfn mərasimində şəhid general-mayor Polad Həşimovun oğlu Davud Həşimov bildirib.**

**"Mənim atam, həqiqətən, igid, qəhrəman insan olub. Fəxr edirəm ki, şəhidlik zirvəsinə ucaldı".**

**Daha sonra şəhid generalın oğlu göz yaşlarına hakim ola bilməyib.**

**İlhamə Əbülfət**

**Görüşəndə Raqufa salam de..**

**Aprel qəhrəmanı Raquf Orucovun həyat yoldaşı general Polad Həşimov haqqda yazısı**

Aprel döyüşlərinin qəhrəmanları, şəhid polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı Sevinc Orucova bu gün şəhid olmuş general-mayor Polad Həşimov haqqında çox təsirli bir yazı yazıb.

Qaynarinfo Sevinc Orucovanın yazısını təqdim edir:

"Sübh tezdən acı xəbəri aldım, amma qəbul edə bilmədim, inanmadım.. Düşündüm ki, yəqin səhv olub... Raquf şəhid olanda da bu cür qarşılamışdım... Sən demə, iki qəhrəman dostun ruhları artıq qovuşubmuş. Sən demə, Vətənim daha bir igid, cəsur qəhrəmanını öz qoynuna almış. General Polad Həşimov... Raqufun silahdaşı, dəyər verdiyi dostlarından biri. Mənim ümidim Sizlərə idi, Raqufu itirəndən sonra, Sizdən gözləyirdim Raquf kimi minlərlə şəhidimizin qisasını. Əsgərinin önündə səngərdə döyüşmək, şəhid olmaq, rütbəsindən asılı olmayaraq hər bir Vətən sevdalısının əqidəsidir!"

"2016-cı ilin qələbə ruhlu aprel döyüşlərindən sonra mən yalnız bacardıqca şəhidlərimizi gənc nəslə tanıdıb, onların döyüş yolunu təbliğ etmişəm. Qisas gününü gözləmişəm, itirdiklərimizin, şəhid ruhlarının, şəhid Vətənimizin qisasını. Bu gün o gündür! Artıq

yetər bu mənfur düşmənlə hər savaşdan sonra atəşkəsi bərpa etmək! Yetər şəhidlərimizin məzarı önünə başıaşağı günahkar kimi getmək! Bu Vətən bizimdir! Hər bir şəhidimiz bu Vətənin bir daşı, torpağıdır! Vətən naminə birləşməliyik, içimizdəki xainləri məhv edib, düşməni birdəfəlik yarandığı torpaqlara geri oturtmalıyıq!

Bu qədər qanın içərisində mən atəşkəs yox, qisas istəyirəm. Qarabağ uğrunda şəhid olan bütün qəhrəmanlarımızın qisasını.. Ya məhv olaq, ya da xalq kimi zəfərlə doğulaq! Daha kimin şəhid olmasını və ya daha nə baş verməsini gözləyirik? Arxalı, harınlamış, yağı düşmən artıq dövlət sərhədimizi pozur. Hamımız öz cəbhəmizdə döyüşə hazırıq! Yetər ki, torpaqlarımız azad olunsun! Yetər ki, biz şəhid ailələrinin göz yaşı qurusun! Düşmənə aman verməyək! Bu gün bütün Azərbaycan döyüşçüdür!

**Ruhun şad olsun, cənab General!**

**Görüşəndə Raqufa salam de..**

**14/07/2020**

**Raquf Orucovun həyat yoldaşı:**

**“Polada “qardaşım” deyirdi...”**

Şəhid polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı Sevinc Orucova Teleqraf.com-un suallarını cavablandırıb.

Modern.az həmin müsahibəni oxuculara təqdim edir:

- Sevinc xanım, həyat yoldaşınız Raquf Orucovu itirdiyiniz zaman olduğu kimi, şəhid general Polad Həşimov barədə də yazı qələmə aldınız və bu yazınız hər kəsə təsir etdi. Raquf Orucovla Polad Həşimov dost olublar, elə deyilmi?

- Onlar təqribən 1996-cı ildə Murov dağında birlikdə hərbi xidmət ediblər. İlk tanışlıqları Murovdağdan başlayıb. Onda biz hələ ailəli deyildik, 1999-cu ildə ailə qurduq. Polad bölük komandiri, Raquf da kəşfiyyat bölüyünün komandiri olub. Çox yaxın münasibətləri vardı.

Murovdakı xidmətlərindən sonra yolları ayrıldı, hərə bir hərbi hissəyə keçdi. Amma hər zaman əlaqə saxlayırdılar. 2013-cü ildə Polad Daşkəsəndə hərbi hissə komandiri təyin olundu. Onda Raquf Ağdamda hərbi hissə komandiri idi, dediyim kimi, heç vaxr əlaqələri kəsilmirdi.

Raquf Orucov Polad Həşimov barədə danışırdımı?

- Raquf onun haqqında həmişə yaxşı sözlər deyirdi. Deyirdi ki, çox dəyərli zabitdir, yaxşı insandır. Vətən üçün çalışan, əsgər üçün canı yanandır, onu həmişə belə təqdim edirdi. Raquf hər

adam haqqında evdə danışmazdı. Amma onun barəsində xoş sözlərini əsirgəmirdi.

2016-cı ilin aprel döyüşlərində bildim ki, generalımız Polad da o döyüşlərdə iştirak edib. Raquf şəhid olanda o da ön cəbhədə döyüşürmüş. Raqufun şəhidliyi ona pis təsir etmişdi. Polad deyirdi ki, qardaşımı itirdim. Dost kimi bizə də başsağlığı verməyə gəlmişdi.

- Polad Həşimovun şəhid olduğu xəbərini alanda hansı hisləri keçirdiniz?

- Çox böyük təəssüf hissi keçirdim... Mən Polada güvənirdim, orduda saf, təmiz, əqidəli zabitlərdən biri idi. Peşəkar idi, məhz belə insanlara güvənirdim ki, nə vaxtsa Raqufun qisasını alacaqlar. Biz yeni Poladlar yetişdirə bilməyəcəyik. Çünki əvvəlki kişilərin Qarabağ sevdası, torpağı tanımağı çox fərqlidir.

Raqufla eyni rütbədə idilər. Raquf qalsaydı, o da bu günün generalı olacaqdı, onu polkovnik kimi yola saldılar. Polad Həşimov yaşasaydı, gələcəyin müdafiə naziri ola bilərdi. Yəni görün biz 5 il sonra nəyi itiririk...

Generalı itirmək əsgərlər üçün də, bizim üçün də ağırdır, bu, Raqufdan sonra ikinci zərbədir. Ailəsi üçün ikiqat faciədir. Həm ata, həm də ailə başçısını itiriblər. Siz təsəvvür edin, elə bir atanı, elə bir ailə başçısını, oğlu itirmək nə deməkdir. Allah xalqımıza səbr versin.

Bu, təkcə bir ailənin itkisi deyil. Raquf Orucovu itirəndə də xalq bizə dəstək oldu. Dəstək indi də davam edir. Amma inanıram ki, xalqımız generalımızın timsalında bütün şəhidlərimizin qisasını

alacaq. Bütün şəhid ailələrimizin acısına, dərdinə şərik olacağıq. Mən belə düşünürəm. Çünki başqa cür bu acını yaşamaq mümkün deyil, həqiqətən böyük itkidir.

Onunla bərabər dəyərli zabitlərimiz də şəhid olub. Hər bir zabitin yetişməsi asan başa gəlmir. Onun peşəkarlığı, onun püxtələşməsi... Polad Həşimovda peşəkarlıqdan başqa saf vətənpərvərlik də var idi. Onun Raqiflə oxşar xüsusiyyətləri çox idi. Ona görə hələ də özümüzə gələ bilməmişik.

- General Polad Həşimovun ailəsi ilə münasibətiniz var idimi?

- Elə ailəvi münasibətimiz yox idi, sadəcə tanıyırdıq. Dediyim kimi, Raquf hər adam haqqında danışmazdı, hər yetəni özünə dost bilməzdi, xasiyyəti çox ağır idi. Amma həmişə Poladı tərifləyirdi, onu qardaşı sandığını deyirdi. Zəngləşib dərdləşirdilər. O da rəhmətlik Raqufa çox dəyər verirdi. Raqufun şəhidliyi ona çox pis təsir etmişdi. Deyirdi, Raquf getdi, mən qaldım.

Dünən dəfn mərasimindən sonra həm polkovnik İlqar Mirzəyevin ailəsinə, həm də Sumqayıtda generalımızın ailəsinə baş çəkdik. Təbii ki, bizi tanıyırlar, həmdərdik. Cənazə gələn gecə də hər iki ailənin evinə gedib, baş sağlığı verdim.

- Ötən gün vətəndaşlar ölkənin müxtəlif şəhər və rayonlarında şəhidlərimizə ehtiramını bildirmək üçün yürüşlər etdilər. Sizin bu yürüş haqqına təəssüratınız necə oldu?

- Bu yürüş birinci dəfə deyil. 2016-cı ildə də şəhidlərimiz xalq sevgisi ilə dəfn olundu. Raquf Orucovun dəfni Sumqayıtda

insanları bir araya gətirmişdi. Mən xalqımdan bunu gözləyirdim. Şəhidlərimizin dəfni ehtiramla müşayiət olunmalı idi. Bu, ailə üçün də böyük təsəllidir. İnsan faciə vaxtı yanında insanı hiss etmək istəyir. Güc-qüvvət almaq istəyir. Mən ailənin acısını başa düşürəm. Biz bunu yaşamışıq. Xalqın dəstəyi lazım idi. Şəhidlərin acısı ilə bərabər meydanda xalqın arzusu da ifadə olunurdu. Xalq torpaqların bütövlüyü üçün çıxmışdı ki, işğala son desin.

Yeni torpaqlarımıza göz dikirlər, bunun qarşısı alınmalıdır, xalq bunun üçün çıxmışdı. Doğrudur, ağır dövrdən keçirik, pandemiya vaxtıdır. Amma xalqımız üçün Qarabağ, şəhid hər şeydən üstündür, hətta canımızdan da. Hamımız torpaq üçün canımızdan keçməyə hazırıq. Xəstəlikdən də məhv ola bilərik, amma torpağımız, vətənimiz uğrunda şəhid olmaq ayrıca bir şərəfdir.

- Sizcə, əhali pandemiya dövründə ordumuza dəstək olmaq üçün nə edə bilər?

- Yürüş bir gün oldu. Sonra insanlar qaydalara əməl etməyə başladılar. Dəstək üçün sosial şəbəkələr var. Onlar haqqında heştekler hazırlaya bilərik. İlk olaraq şəhidlərimizi nəyin uğrunda veririk, bax o həqiqətləri dünyaya çatdırmalıyıq.

Azərbaycanın dövlət sərhədini işğalçı Ermənistan pozur. Biz hər birimiz bunları dünyaya çatdırıb, dəstək olmalıyıq. Dövlətimizə dəstək olmalıyıq, bu həqiqətlər bir nəfərin işi deyil. Hamımız hər yerdə, bildiyimiz dillərdə portallara yerləşdirməliyik. Tezislər

hazırlayıb BMT-nin müvafiq qurumlarına göndərməliyik. Dünya birliyini ayağa qaldıra bilərik.

Xalq birliyi təkcə meydanda olmamalıdır. Real dəstək vermək lazımdır. Dünyaya fikirlərimizi daha sivil yollarla çatdırmalıyıq. Bu, həm də informasiya müharibəsidir. Biz təkcə meydanda mübarizə aparmamalıyıq. Burada təkcə bizim şəhid sayımız, onların cənazə sayı ilə ölçülmür. İnformasiya mübarizəsində udmalıyıq. Dövlət sərhədimiz pozulur, bu isə beynəlxalq hüquq normalarına ziddir. Biz bunu qabartmalıyıq.

- Siz "Zəfər" İctimai Birliyinin rəhbəri kimi gənc nəslə vətənpərvərlik ruhunun aşılanması, onlara şəhidlərimiz barədə daha ətraflı məlumat verilməsi istiqamətində çalışırsınız. İndiki gənc nəsildən razısınızmı? Onların bu proseslərə reaksiyası necədir?

- Biz yetkin gənclik yetişdirməliyik. Əgər onların səhvi varsa, deməli, o səhvi bizim kimi ictimai təşkilat rəhbərləri, cəmiyyət üzvləri, ziyalılar buraxıb. Tək gənclərin üzərinə hər şeyi yükləmək istəmirəm. Gənclər bu faciələrdən sonra doğulmuş uşaqlardır. Biz onları necə yetişdirəcəyiksə, o cür də gənclik görəcəyik. Orta məktəblərin, ali təhsil müəssisələrini müəllim heyətlərinin üzərinə böyük yük düşür.

Biz pandemiyadan əvvəl universitetləri gəzdik, gənclərlə əlaqələr qurduq. Hamı eyni ola bilməz, hər zaman istədiyimiz 100 faiz

nəticəni ala bilmərik. Amma şübhəsiz ki, çox dəyərli gənclərimiz var. Ümid edirəm və inanıram ki, onlar bizim edə bilmədiyimiz daha böyük işləri görüb başa çatdıracaqlar.

# "Öz dərdimiz yadımızdan çıxdı..."

## Sinif yoldaşı şəhid generaldan yazdı

"Bu günlərdə hamı səni General-mayor Polad Həşimov kimi tanıdı, amma mən orta məktəb illərindən 1 partada oturan əziz qardaş, sevimli sirdaş, hər zaman bic-bic gülümsəyən, heç kimi incitməyən POLAD kimi tanımışam".

Publika.az xəbər verir ki, bu sözləri Sumqayıt şəhəri, Mikayıl Müşfiq adına 34 saylı orta məktəbin XI A sinfində şəhid General-mayor Polad Həşimovla bir yerdə təhsil alan Vəfa İbrahim deyib.

O, generalla bağlı xatirələrini bölüşüb:

"Sənin ŞƏHİD olmağın illərlə əlaqə qura bilməyən sinif yoldaşlarımızı bir araya gətirdi, hər sözümüz, hər kəlməmiz POLAD oldu, öz dərdimiz yadımızdan çıxdı. Sosial mediada, xəbərlərdə, rəylərdə sənin haqqında yazılanları oxuduqca heç təəccüblənmədim, çünki səni uşaqlıqdan tanıyırdım. Təəccüblənmək o vaxt olur ki, bilmədiyin yeni bir şey öyrənirsən. Yazıblar ki, hər zaman güclü, strateji planlar hazırlamısan. Buna necə təəccüblənmək olar?! Çünki riyaziyyat fənnini çox gözəl bilirdin, bizə də kömək edirdin (tapşırıq dəftərini verirdin çalışmaları səndən köçürdürdük). Sevimli Gülşən müəlliməmiz elə gün olmurdu ki, səni lövhəyə çıxartmasın. Heç etiraz etməzdin, yenə də gülə-gülə lövhəyə çıxardın. Ağlımda lövhənin qarşısında durduğun anlar həkk olunub: uzun, arıq, qarayanız, gülərüz Polad.

Yazırlar ki, inadkar olmusan. Buna da təəccüb etmədim. Belə ki müəllimlərimiz israr edirdilər ki, sən həkim olmalısan. Ancaq sən öz bildiyini etdin, hərbçi olmağı seçdin.

Əsgərlərin yazıb ki, ata, böyük qardaş sevgisi görüblər səndən. Heç təəccüb etmədim, çünki biz (sinif yoldaşımız Məmmədova Vəfa və mən eyni qrupda oxuyurduq) tələbə olanda təhsil aldığımız Xarici Dillər Universitetinə hərbi formada gəlib bizə baş çəkmişdin, dərslərimizlə maraqlanmışdın, çox qürurlanmışdıq".

"Millətimiz, sevimli Sumqayıtımız səni çox sevgi ilə qarşıladı, zamana, məkana, hətta karantin rejiminə belə baxmadan həsrətlə yolunu gözlədi. Buna da heç təəccüb etmədim. Çünki sən özün də insansevər, mərd, cəsur, bütün çətinliklərə sinə gərirdin. Səsin-sorağın Murov dağdan, cəbhə bölgələrindən gəlirdi. Səninlə bağlı yaddaşımda qalan xatirələrim çoxdur, ancaq hislərimi bayatılara köçürdə bildim, əzizim Polad! Haqqını bizə halal elə!", - deyə Vəfa İbrahim bildirib.

Əzizinəm gülərdi,

Danışardı, gülərdi.

Polad çox sirr bilsə də,

Söyləməzdi, gülərdi.

Əzizim vəfalı dost,
Sevgili, sevdalı dost!
Ömrümdə Polad oldu
Vətənə sevdalı dost.

Dağlarında çəni var,
Dumanı var, çəni var.
Poladımız gedəndən
Ölkəmizin qəmi var.

Əzizinəm ay Polad,
Sevdin bizi, ay Polad?!
Doymadıq nur üzünə
Sən doydunmu, ay Polad?!

Ay gəlib illər gedib,
Sevincli günlər gedib.
Qəlbimdə çox kədər var,
Polad ömrümdən gedib.

Əzizim dost yarası,

Ağırdır dost yarası.

Polad, dərdim çox böyük

Sağalmaz dost yarası.

Əzizinəm Poladdır,

Dəmir deyil, poladdır.

Düşmənlərə dağ çəkən

Generalımız Poladdır.


TELEQRAF
TƏRİFNAMƏ
TƏRİFNAMƏ


TELEQRAF



















**Rəssamlıq Akademiyasının 4-cü kurs tələbəsi Təbriz Soltanlı iyulun 14-də erməni təxribatı zamanı şəhid olan general-mayor Polad Həşimovun büstünü hazırlayıb.**